# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 26 (3350) Cümə axşamı / 11-12 mart 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## "Ermənistana layiq olan fiqur elə Paşinyandır..."



**Tofiq Zülfüqarov,**
sabiq Xarici İşlər naziri

***Azərbaycan torpaqlarının böyük hissəsinin işğaldan azad olunması ilə nəticələnmiş müzəffər savaşımızın sonunda imzalanmış 10 Noyabr üçtərəfli razılaşmasından 4 ay keçdiyi bir vaxtda Ermənistanda iqtisadi böhranla yanaşı, hərbi-siyasi böhran da dərinləşməkdədir. Son günlər Baş nazir Nikol Paşinyanla Baş Qərargah rəisi Onik Qasparyan arasında yaşanan münaqişə də ölkədəki qarşıdurmanı pik həddə çatdırıb. Müxalif toplum parlament binası önündən çəkilmir...***

*Ermənilərin gözləri qarşısında 33 ilin "miatsum" hay-küyü 44 gün ərzində puç oldu...*

Səh. 3

# SƏNƏDSİZ EVLƏR inventarlaşdırılır

***Ölkəmizdə uzun illərdir həllini gözləyən və tez-tez gündəmə gələn sənədsiz evlərin taleyi məsələsində düyünlər deyəsən yavaş-yavaş çözülür. Hər dəfə problemin tezliklə həll olunacağı deyilsə də, tam olaraq addımlar atılmırdı. Üstəlik, belə evlərdən bəziləri xüsusi riskli hesab edilən ərazilərdə inşa edilib. Bəs görəsən, sənədsiz evlərin qeydiyyata alınmasına mane olan amillər nələrdir? Proses hansı formada təşkil edilməlidir? Məsələnin həlli əmlak bazarına nə kimi təsir edə bilər? Hafta.az-ın əməkdaşı mövzu ilə bağlı araşdırma aparıb. İlk öncə nəzərinizə çatdıraq ki, Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatında sənədsiz yaşayış evlərinin inventarlaşdırılması həyata keçirilməsi əksini tapıb. Sənəddə qeyd edilib ki, ölkə ərazisində müvafiq hüquqmüəyyənedici sənədlər olmadan inşa edilmiş tikililər (əsasən yaşayış evləri) və onların yerləşdiyi torpaq sahələri ilə bağlı problemin həlli məqsədilə Azərbaycan Respublikasının Prezidentinin tapşırığına əsasən Prezident Administrasiyasının rəhbəri tərəfindən 2019-cu il 2 iyun tarixində Tədbirlər Planı təsdiq edilib.***



Problemin mərhələli həllini nəzərdə tutan Tədbirlər Planına uyğun olaraq yerli ekspert komissiyaları yaradılıb. Komissiyaların tərkibinə yerli icra hakimiyyəti orqanlarının, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin, Fövqəladə Hallar, Kənd Təsərrüfatı və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və digər qurumların nümayəndələri daxildir. Həsabatda nəzərə çatdırılır ki, hazırda həmin komissiyalar tərəfindən şəhər və rayonlar üzrə müvafiq hüquqmüəyyənedici sənədlər olmadan inşa edilmiş tikililər və onların yerləşdiyi torpaq sahələrinin inventarlaşdırılması həyata keçirilir. Eyni zamanda yaşayış evlərinin və torpaq sahələrinin mühafizə və sürüşmə zonalarına düşüb-düşmədiyi, kənd təsərrüfatı təyinatlı torpaqlarda yerləşib-yerləşmədiyi məsələsi də diqqətdə saxlanılır.



**Azər Badamov,**
Milli Məclisin deputatı

*"Sənədləşdirilməsi mümkün evlərin torpaq təyinatları da dəyişdiriləcək"*

Sənəddə bu da deyilir ki, Bakı şəhərində 163 min daşınmaz əmlak üzrə, digər şəhər və rayonlarda isə təxminən 2 min yaşayış məntəqəsi üzrə 84 min daşınmaz əmlak obyektindən 74,6 mini üzrə işlər yekunlaşıb. Mövzunun həlli yollarının Milli Məclisdə müzakirə olunacağı deyildi.

■ **Elə bu səbəbdən də suallarımızı deputat Azər Badamova ünvanladıq. Deputat bildirir ki, problemin həlli Milli Məclisdən asılılı deyil:** "Sənədsiz evlərin sənədləşdirilməsi məsələsi uzun illər yığılmış problemdir. Ölkə başçısının bu prosesin sürətləndirilməsi istiqamətində tapşırıqları olmuşdur. Məsələ ilə əlaqədar müəyyən strukturları təmsil olunan komisiya yaradılmışdır və həmin torpaqların inventirizasiyası həyata keçirilir. Hökumətin Milli Məclisə təqdim etdiyi hesabatda da bu məsləyə xüsusi yer verilmişdir. Yəni, bu problemin həllinə hökumət maraqlıdır, amma çox mürəkkəb və vaxt tələb olunan məsələdir. Sənədsiz evlərin çox hissəsi təyinatı başqa olan torpaqlarda, qaz, elektrik və su xətlərin mühafizə zonalarında tikilmişdir. Ona görə də hansı evlərə sənədlər vermək mümkündür müəyyənləşdirilməlidir. Bütün tikililər inventerizasiya olunaraq təhlil olunmalıdır. Biz bu məsələni bir neçə dəfə Milli Məclisin iclaslarında gündəmə gətirmişik.

Problemin həlli Milli Məclisdən asılılı deyil. Bunula yanaşı düşünürəm ki, sənədləşdirilməsi mümkün evlərin torpaq təyinatları da dəyişdiriləcək və yaxın zamanlarda mərhələli şəkildə sənədləşdirilmə işlərinə başlanacaqdır".



**Elnur Fərzəliyev,**
əmlak məsələləri eksperti

*"Sənədləşmədə yaranan problem səbəbi ilə indi yalnız ehtiyacı olanlar mənzil alır"*

■ **Əmlak eksperti Elnur Fərzəliyevin sözlərinə görə, çıxarışsız evlərin sənədləşdirilməsi problemi daima aktual olan məsələdir. Həlli ilə bağlı isə, uzun illərdir ki sadəcə çağırışlar olur, ciddi addımlar isə atılmır:**

"Təxmini götürsək, Bakı və Abşeronda 500 mindən çox çıxarışsız fərdi həyət evləri var. Hansı ki onlar qanunsuz tikili adlandırılır. Əslində isə həmin evlərin hər birinin müəyyən sənədləri var. Daşınmaz əmlak sektoru və tikinti sahəsi ölkə iqtisadiyyatının inkişafında çox böyük rol oynayır. Bunu elə paytaxtımızın 20-il öncəki ilə müasir görünüşünün müqayisəsi zamanı aydın görmək olar".

Daha sonra ekspert sənədsiz evlər probleminin iqtisadiyyatımıza vurduğu ziyanlardan da söz açdı:

"Bu gün vətəndaşlar bələdiyyə sərəncamı ilə tikilən evlərə çıxarış ala bilmir. Əlavə olaraq, bazarda həddindən çox saxta, kökü olmayan sənədlər mövcuddur. Çıxarışın olmamasının iqtisadiyyatımıza vurduğu zərərləri isə saymaqla bitmir. Birinci növbədə, çıxarışı olmayan mülk, ipoteka kreditinə çevrilə bilmir. Bundan başqa, İki il əvvələ qədər Azərbaycana çoxsaylı turistlər gəlirdi ki, onlar da ölkəmizdə ciddi yatırımlar etmək istəyirdilər. Daha sonra gördülər ki, bəyəndikləri əmlakların, xüsusən həyət evləri və villaların əksəriyyətinin çıxarışı yoxdur. Belə əmlakı isə heç bir xarici vətəndaş ala bilməz. Həmin ərəfədə bu sahədəki boşluqlar ucbatından ölkəmiz xaricdən gələ biləcək milyardlarla dolları itirdi.

Səh. 3

MÜSAHİB



**Abutalib Səmədov,**
Azərbaycan Naminə Alyans Partiyasının sədri

■ *Terrorçular, diversantlarla bağlı Azərbaycan qəti mövqe tutmalıdır.*

■ *Rusiya sülhməramlıları 5 ildən artıq Azərbaycanda qalmamalıdırlar.*

■ *Ərazilər tam təhlükəsiz olana qədər bizim həmvətənlərimiz ora qayıtmamalıdır.*

Səh. 5

GÜNÜN FOTOSU...



**Zəngəzurda yeni rus hərbi bazasının fotoları yayıldı...**

GÜNÜN SİTATI

*"Rusiya-Türkiyə dialoqunun nəticələrini ikitərəfli əlaqələrdə, habelə bölgədə - Liviyadan Dağlıq Qarabağa, Suriyaya qədər bir çox sahədə görürük. Qarşıdakı dövrdə bu əlaqələri inkişaf etdirməkdə qətiyyətliyik"*



**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Prezidenti

KARİKATURA



**Paşinyanın bugünkü vəziyyəti...**

## Nikahöncəsi tibbi müayinə

**Əhməd Qəşəmoğlu,**
sosioloq

Ailədəki hər xırda narazılıqdan böyük problem yaradan tərəflərin sağlam ailə qurmaq şansı az olur ki, bunun zərərini də cəmiyyət çəkir.

Səh. 4

STATİSTİKA



■ **2021-ci ilin yanvar-fevral aylarında əsas kapitala 1 338,4 mln. manat məbləğində, yaxud 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 32% az vəsait yönəldilib.**

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 13,5%, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 49% azalıb. İstifadə olunmuş vəsaitin 1 071,2 mln. manatı və ya 80%-i məhsul istehsalı sahələrinə, 146,8 mln. manatı (11%-i) xidmət sahələrinə, 120,4 mln. manatı (9%-i) isə yaşayış evlərinin tikintisinə sərf olunub.



Səh. 8

## Soyan və qazandıran koronavirus aşıları

## PREZİDENTİN İŞ GÜNÜ



**Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətində səmərəli fəaliyyətinə, vəzifə borcunu peşəkarlıqla yerinə yetirdiyinə görə Bəylər Həsən oğlu Eyyubov "Şərəf" ordeni ilə təltif edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.**

# Macarıstan Azərbaycanın ən yaxın dostlarındandır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonu videoformatda qəbul edib. Macarıstanlı naziri salamlayan Prezident İlham Əliyev dedi:**

- Cənab nazir, xoş gəlmisiniz. Sabahınız xeyir. Sizi görməyə çox şadam. Bu vaxt ölkəmizə səfər etməyiniz müsbət haldır və bizim söhbət aparmaq üçün imkanımız olacaq. Bilirəm ki, bir neçə ay əvvəl siz həmkarınızla ikitərəfli iqtisadi komissiyanın işi ilə əlaqədar məsələləri müzakirə etmisiniz. Mənə bu barədə məlumat verilib və hesab edirəm ki, işlər düzgün istiqamətdə gedir.

Əlbəttə, strateji tərəfdaş olan Azərbaycan və Macarıstan müxtəlif sahələrdə fəal əməkdaşlığı davam etdirməlidir. Biz Avropa Komissiyası ilə əlaqələrimizdə sizin dəstəyinizə görə minnətdarıq. Bildiyiniz kimi, biz Avropa İttifaqı ilə sazişin müzakirəsinin yekun mərhələsindəyik, pandemiya və müharibə səbəbindən bu müzakirələr müvəqqəti dayandırılıb. Sazişin müddəalarının mütləq əksəriyyəti artıq razılaşdırılıb və əminəm ki, qarşıdan gələn aylar ərzində daha böyük irəliləyiş olacaq. Əlbəttə, ikitərəfli gündəliyimiz çox vacibdir. Dost ölkələr olan Azərbaycan və Macarıstan iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığı fəallaşdırmalıdır. Xüsusilə də işğal altında olan ərazilərimizin azad edilməsindən sonra orada yenidənqurma sahəsində çoxlu imkanlar mövcuddur. Həmin ərazilər tamamilə viran qoyulub və yəqin ki, siz də həmin videomateriallarla tanışsınız. Oralar darmadağın edilib və biz həmin əraziləri sıfırdan yenidən qurmalıyıq. Söhbət Azərbaycanın böyük bir hissəsi - 10 min kvadratkilometrdən artıq ərazidən gedir və biz bu işi tərəfdaşlarımızla əməkdaşlıq şəraitində icra etmək istəyirik. Mən artıq bir neçə dəfə bunu ictimai şəkildə bəyan etmişəm ki, biz dost ölkələrdən olan şirkətləri əməkdaşlığa dəvət edəcəyik. Macarıstan Azərbaycanın ən yaxın dostlarındandır. Əminəm ki, Macarıstan şirkətlərinin də azad edilmiş ərazilərdə bizimlə birlikdə çalışmaqla bağlı çoxlu imkanları olacaq.

Digər sahələrdə də imkanlar mövcuddur. Bilirəm ki, kənd təsərrüfatı və texnologiya sahələrində böyük potensial var. Biz azad olunmuş ərazilərdə müasir infrastruktur və şəhərsalma layihələrinin icrasını planlaşdırırıq. Beləliklə, görüləcək işlərin həcmi böyükdür və əminəm ki, səfəriniz çərçivəsində həmkarlarınızla bu məsələləri ətraflı müzakirə edəcəksiniz. Bir daha Azərbaycana xoş gəlmisiniz.

**Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto dedi:**

- Sizinlə videokonfrans vasitəsilə görüşmək imkanına görə təşəkkür edirəm. Cənab Prezident, bildiyiniz kimi, bizim mövqeyimiz hər zaman ondan ibarət olub ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi bərpa olunmalıdır. Son bir neçə onillik ərzində Azərbaycanın bu hüququ pozulmuşdu və biz bununla bağlı mövqeyini gizlətməyən ölkələrdən olmuşuq. Biz bu məsələ ilə bağlı mövqeyimizi aydın ifadə etməkdə davam edəcəyik. Cənab Prezident, əmin ola bilərsiniz ki, biz bu baxımdan hər zaman balanslı yanaşma nümayiş etdirəcək, həqiqəti söyləyəcək və mövqeyimizi açıq ifadə edəcəyik. Cənab Prezident, ölkəmizin Baş naziri Sizə salamlarını çatdırmağı tapşırıb.

Prezident İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Macarıstanın Baş nazirinə çatdırmağı xahiş etdi.

## Gündəm

# ABŞ konqresmenlərinin Azərbaycana növbəti "hərbi əsir" həmləsi

***ABŞ Konqresi II Qarabağ savaşından sonra Azərbaycan ərazilərinə soxularkən həbs edilən 60-dan çox diversant qrupun azad olunması, geri qaytarılması ilə bağlı məsələni müzakirəyə çıxarıb. Konqresmenlər Azərbaycana qarşı sanksiyanın qəbul olunmasına çalışır. Bir çox ekspert bu məsələnin Paşinyanla ABŞ dövlət katibi arasında baş tutan telefon danışığından sonraya təsadüf etdiyini bildirib. ABŞ Konqresinin Azərbaycanda həbsdə olan 60 diversantın hərbi əsir kimi Ermənistana təhvil verilməsi ilə bağlı maraqlarının arxasında nə dayanır?***



**Politoloq Elxan Şahinoğlu Ermənistanın baş naziri Nikol Paşinyanla ABŞ dövlət katibi Entoni Blinken arasında telefon danışığına diqqət çəkərək, bu təşəbbüsün İrəvandan gəldiyini və hərbi əsirlərlə bağlı müzakirələrin bundan əvvəl başladığını deyib.**

Politoloq bildirir ki, Nikol Paşinyan Entoni Blinkeni dövlət katibi vəsifəsinə təyin olunması münasibətilə təbrik edəndən sonra hər zaman olduğu kimi danışdığı tərəflə "əsirlərə" görə Azərbaycandan şikayət edib, Vaşinqtondan dəstək istəyib:

"Böyük ehtimalla, Blinken bu məsələyə reaksiya verməyib, əks halda erməni saytları yazardılar ki, "dövlət katibi əsirlərin qısa zamanda təhvil verilməsini istəyib. Digər tərəfdən, Nikol Paşinyan növbəti yaltaq cümlə işlədərək ABŞ-ın ATƏT-in Minsk Qrupundakı rolunu yüksək qiymətləndirib. Halbuki vasitəçilərin turist səfərlərini nəzərə almasaq, ABŞ-ın Minsk Qrupunda elə bir fəallığı yoxdur.

Buna baxmayaraq, Entoni Blinken Ermənistan-Azərbaycan münaqişəsinin həllində rolunu davam etdirməyə hazır olduğunu bildirib. Blinken bununla demək istəyib ki, Vaşinqton Rusiyanın Dağlıq Qarabağ məsələsində təkbaşına fəallığından narahatdır və Amerika da oyundadır. Daha sonra Entoni Blinken ABŞ-ın demokratiya sahəsində Ermənistana islahatlar aparmaqda və korrupsiya ilə mübarizədə kömək edəcəyini deyib. Bununla Blinken faktiki demək istəyib ki, Ermənistanda çevrilişə qarşıdırlar, qanuni hökuməti dəstəkləyirlər və korrupsiyaya bulaşmış, o cümlədən Rusiyaya bağlı qüvvələrin hakimiyyətə gəlişinin əleyhinədirlər. Dövlət Departamentinin Ermənistana 150 min dollar ayrımasını açıqlaması da bundan xəbər verir. Əlbəttə, Amerika üçün 150 min dollar gülməli rəqəmdir. Ancaq Vaşinqton elə bu məbləğlə demək istəyir ki, Paşinyanı dəstəkləyirlər. Nikol Paşinyanın Blinkenə zəngi və Vaşinqtondan dəstək istəməsi Kremlin xoşuna gəlməyəcək. Bunu Paşinyan da anlayır. Ancaq Nikol Paşinyan hakimiyyətini xilas etmək üçün saman çöpündən yapışmağa da hazırdır, sadəcə Vaşinqtonun Cənubi Qafqazda rolu və mövqeyi xeyli azalıb. Balansı qorumaq naminə Vaşinqtondan Bakıya da zəng ediləcəyi ehtimalı yüksəkdir".

> *Nəyə görə bir dəfə də olsun Azərbaycanpərəst konqresmenlər durub demir ki, ermənilər minalanmış ərazilərin xəritəsini niyə vermir*



**Elxan Şahinoğlu,**
politoloq

E.Şahinoğlu bildirib ki, Paşinyanın yalvarışlarına, yaltaqlığına baxmayaraq ABŞ Konqresi "hərbi əsir" adı ilə diversantların geri qaytarılması ilə bağlı Azərbaycana heç bir təsir göstərə bilməz. Onun sözlərinə görə, erməni konqresmenlərin qaldırdığı bu məsələ müəyyən bir qrup tərəfindən həyata keçirilir: "Biz dəfələrlə demişik ki, 10 noyabrdan sonra ələ keçirilən bir qrup erməni terrorçusu bizim üçün hərbi əsir sayıla bilməz. 10 noyabr bəyanatına görə rus hərbçilərinin bölgəyə daxil olması ilə paralel erməni silahlı qüvvələri bölgəni tərk etməlidir. 10-na qədər sərt dəyişdirilib, amma 10-dan sonra artıq hərbi əsrilərlə bağlı razılaşma pozulub. Əslində Azərbaycan bu məsələni dünya ictimaiyyəti qarşısında qaldırmalıdır. Eləcə də biz dünya ictimaiyyətinə minalanmış ərazilərlə bağlı xəritələrin verilmədiyini çatdırmalı və ermənistan qarşısında qəti məsələ qaldırılmasını tələb etməliyik. Amma biz yenə də ermənipərəst konqresmenlərin daha fəal olduğunu dörürük".

Politoloq hesab edir ki, belə bir şəraitdə Azərbaycanın xarici ölkələrdəki səfirləri, eləcə də diasporalar minalanmış xəritələrlə bağlı çıxışlar etməli, dünyanın diqqətini buna yönəltməlidir:

"Amerikanın bölgədə elə bir nüfuzu qalmayıb. Dəfələrlə bizə qarşı belə sənədlər qəbul ediblər. Bunun başında isə 1992-ci ildə Azərbaycana qarşı qəbul olunan 907-ci düzəlişi qeyd etmək olar. Amma buna baxmayaraq Azərbaycan əleyhinə qərarlar qəbul etməkdə maraqlı olan ölkələrdəki səfirlərimiz, o cümlədən ABŞ-da, Fransada, Hollandiyadakı səfirlərimiz fəal olmalıdırlar. Azərbaycanın haqlı mövqeyini dünyaya izah etməlidirlər.

Biz hər dəfə şikayətlənirik ki, ermənipərəst konqresmenlər Azərbaycana qarşı çıxır. Nəyə görə bir dəfə də olsun Azərbaycanpərəst konqresmenlər durub demir ki, ermənilər minalanmış ərazilərin xəritəsini niyə vermir. Yaxud, nəyə görə Ermənistanın rəsmiləri Azərbaycana qarşı ağzına gələni danışır, amma bizim Xarici işlər Nazirliyi bunlara qarşı cavab vermir. Azərbaycan hər bir görüşdə, tədbirdə minalanmış ərazilərin qaytarılması məsələsini qaldırmalıdır. Bizim nazir bütün görüşlərdə minalanmış ərazilər məsələsini qaldırmalıdır. Bizim fəaliyyətimizdə də zəiflik var. Düşmənə qarşı qabaqlayıcı addımlar atmalıyıq". Politoloq bildirir ki, Amerikanın Qafqazda təsir alətləri yoxdur. Türkiyənin bölgədə yerləşməsini Rusiya artıq qəbul edib. Artıq bölgədə iki əsas oyunçu güc var:

"Türkiyə Cənubi Qafqazda yerləşdi, Amerika da bunu anlayır və buna mane ola bilməz, Ermənistanın əli ilə müharibə apara bilməz. Ermənisanda xaosdur, elə güclü dövlət deyl ki, onun əli ilə bölgəni qarışdırsın. Türkiyəni bölgədən çıxarmaq mümkün olmayacaq. Bunda Rusiya, İran, Gürcüstan da maraqlıdır. Hətta Paşinyn özü də bunda maraqlıdır. Hələlik Ermənistandakı vəziyyətə görə əl-qolu bağlıdır. Bir müddət keçəcək, 10 Noyabr bəyanatını yerinə yetirməyə məcbur olacaq".

Politoloq mövcud geosiyasi reallıqlar fonunda Konqresdə qəbul olunacaq hər hansı bir sənədin təsir gücünə sahib olmayacağını deyib. Onun sözlərinə görə, Konqresdə qəbul olunan ermənipərəst sənəd yalnız Amerikanın özünə zərər verəcək və bu, Azərbaycanla aralarında məsafənin saxlanılmasına səbəb olacaq.

*Tahirə Qafarlı*

# BMT-nin mötəbər Konqresində Ermənistanın hərbi cinayətləri ifşa edildi

***Bu il martın 7-dən 12-dək Yaponiyanın Kioto şəhərində BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresi keçirilir. Beş ildən bir keçirilən bu mötəbər forumun işinə BMT-nin üzv olan ölkələrindən dövlət və hökumət başçıları, ədliyyə və daxili işlər nazirləri, baş prokurorlar, digər hökumət üzvləri, nüfuzlu beynəlxalq təşkilatların rəhbər vəzifəli şəxsləri bilavasitə və ya onlayn qatılıblar.***



Tədbirdə Azərbaycanı ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir. Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Yaponiyadakı səfiri Gürsəl İsmayılzadə, Ədliyyə, Xarici və Daxili İşlər nazirliklərinin, Baş Prokurorluğun məsul şəxsləri daxil ediliblər.

Qlobal səviyyədə cinayətkarlığa qarşı mübarizə siyasətini müəyyən edən və əsas təşkilatçısı Yaponiyanın Ədliyyə Nazirliyi olan bu tədbirin təntənəli açılış mərasimində Yaponiyanın şahzadəsi Hisako Takamodo və Baş naziri Yoşihide Suqa, BMT-nin baş katibi Antonio Quterreş, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının sədrləri, habelə ev sahibliyi edən ölkənin ədliyyə naziri və baş prokuroru çıxış ediblər.

Açılış mərasimindən sonra yüksək səviyyəli plenar sessiyanın iclasları başlanılıb. İlk iclasda birinci bilavasitə çıxış edən respublikamızın ədliyyə naziri Azərbaycan və həmçinin, ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkətına üzv olan 120 dövlət adından nitqlər söyləmişdir.

BMT-nin saytında canlı yayımlanmış çıxışda ədliyyə naziri ölkəmizdə dövlət başçısının rəhbərliyi ilə görülən cinayətkarlığın qarşısının alınması üzrə qəti tədbirləri, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə xaricdə təqdir olunan genişmiqyaslı islahatları, o cümlədən elektron məhkəmənin tətbiqini, göstərilən sahələrdə Azərbaycanın yüksək beynəlxalq reytinqlərə malik olmasını, ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi üzrə atılan mühüm addımları, korrupsiya ilə mübarizə üzrə ciddi işləri vurğulayıb, o cümlədən xaricdə böyük maraqla qarşılanan Azərbaycan brendi olan "ASAN xidmət"in səmərəli fəaliyyətindən danışıb.

Çıxışda Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın 30 illik erməni işğalından azad olunduğu, təcavüzkar düşmənin törətdiyi müharibə cinayətləri, xüsusilə Ermənistan tərəfindən beynəlxalq normalara zidd olaraq xarici ölkələrdən olan terrorçu muzdluların cəlb edilməsi, erməni diasporu tərəfindən aldatma və digər qanunsuz yollarla silah və sursatların alınması və humanitar yardım altında münaqişə zonasına mülki aviaşirkətlər vasitəsilə qanunsuz göndərilməsi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

İşğal dövründə torpaqlarımızın yerlə-yeksan edildiyi, bütün infrastrukturun büsbütün viran olunduğu, o cümlədən tarixi, mədəni və dini abidələrin məhv olunması ya da talanması faktları vurğulanıb, həmin ərazilərin qeyri-qanuni iqtisadi fəaliyyət, narkotrafik və digər cinayət əməlləri üçün istifadə olunması qeyd edilib.

Konqres iştirakçılarının və bütün dünya hüquq ictimaiyyətinin diqqəti Ermənistanın bu cinayət əməllərinə cəlb olunmuş, sülh üçün təhlükə olan bu əməlləri törədənlərin məsuliyyətə cəlb edilməsi ilə bağlı bütün dövlətlərə çağırış olunub.

Çıxışın ingilis və rus dillərində olan mətnləri həmçinin tədbir iştirakçıları arasında yayımlanıb. Qoşulmama Hərəkatı adından tədbirdə çıxış edilərək Kioto Konqresinin gündəliyindən irəli gələn məsələlərlə bağlı Hərəkatın mövqeyini əks etdirən bəyanat barədə məlumat verilib. Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinin razılığı ilə qəbul edilərək yayımlanmış bəyanatda Azərbaycan tərəfinin təkliflərinə uyğun olaraq xeyriyyə təşkilatlarından terrorçuluğun maliyyələşdirilməsi məqsədilə istifadə edilməsinin qarşısının alınması, münaqişə dövründə vandalizm aktları, mədəni irsin dağıdılması və ya talanması ilə bağlı böyük narahatlıq ifadə olunaraq bu halların aradan qaldırılmasına, qanunsuz çıxarılmış mədəni mülkiyyətin qanuni sahibinə geri qaytarılması ilə bağlı çağırışlar təsbit olunub.

Konqres iştirakçılarının diqqətini cəlb edən bu əsaslı ittihamlardan yayınmaq istəyən Ermənistan tərəfi ölkəmiz və Türkiyə ilə bağlı uydurma fikirlər söyləyib, lakin Azərbaycan nümayəndə heyətinin tutarlı dəlilləri ilə onların yalanları tam ifşa olunub. Elə həmin iclasda qlobal cinayətkarlığa mübarizə üzrə səylərin gücləndirilməsinə yönəlmiş Kioto Bəyannaməsi qəbul olunub. Bu 5 illik proqram xarakterli mühüm sənəddə Azərbaycanın təkliflərinə əsasən milli maraqlarımıza cavab verən müddəalar tam əksini tapmışdır.

**Yaponiyanın Kioto şəhərində keçirilən BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresində iştirak edən Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov Yaponiyanın ədliyyə naziri Yoko Kamikava ilə görüşüb.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, F. Məmmədov həmkarını cinayətkarlığa mübarizəyə həsr olunmuş bu mötəbər forumun pandemiya şəraitində yüksək səviyyədə keçirilməsi və Konqresin prezidenti seçilməsi münasibətilə təbrik edib, habelə qlobal cinayətkarlıqla mübarizə üzrə bütün dövlətlər üçün yol xəritəsi olan və Azərbaycanın milli maraqlarını əks etdirən Kioto Bəyannaməsinin qəbul olunmasının mühüm əhəmiyyətini qeyd edib.

Azərbaycan ədliyyə nazirinin Konqresdə bilavasitə iştirakını yüksək qiymətləndirən Y.Kamikava iki ölkə arasında dostluq əlaqələrinin olduğunu, 30 il ərzində əməkdaşlıq münasibətlərinin uğurlu inkişafını qeyd edib, hüquqi sahədə qarşılıqlı fəaliyyətin genişləndirilməsində maraqlı olduğunu söyləyib.

Nazir dövlətlərimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini qeyd edib, ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün perspektivlərin olduğunu deyib, bu sahədə konkret təkliflər irəli sürüb.

Eyni zamanda, Azərbaycanın məhkəmə-hüquq sahəsində beynəlxalq aləmdə təqdir edilən islahatları barədə məlumat verilməklə hüquqi sahədə təcrübə mübadiləsinin hər iki tərəf üçün faydalı olacağı qeyd olunub, iki nazirlik arasında əməkdaşlığa dair sənədin hazırlanması barədə razılığa gəlinib. Nazir həmçinin, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində ölkəmizin böyük Qələbəsini, torpaqlarımızın 30 illik erməni işğalından azad olunaraq ədalətin bərpa edildiyini vurğulayıb. İşğal dövründə torpaqlarımızın yerlə-yeksan edildiyi, bütün infrastrukturun büsbütün viran olunduğu, o cümlədən tarixi, mədəni və dini abidələrin məhv olunması ya da talanması faktları xüsusi qeyd olunub. Məcburi köçkün olmuş 750 min soydaşımızın öz dədə-baba yurdlarına qayıtması üçün ərazilərimizin bərpası üzrə görülən genişmiqyaslı işlərdən, o cümlədən "ağıllı kənd"lərin və yaşıl enerji zonalarının yaradılmasından danışılaraq, bu sahədə xarici tərəfdaşlarla əməkdaşlıq üçün geniş imkanların olduğu bildirilib. Görüşdə Azərbaycanın Yaponiyadakı səfiri Gürsəl İsmayılzadə iştirak edib.

*Azad*

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Müsahib



**Tofiq Zülfüqarov,**
sabiq Xarici İşlər naziri

***A**zərbaycan torpaqlarının böyük hissəsinin işğaldan azad olunması ilə nətucələnmiş müzəffər savaşımızın sonunda imzalanmış 10 Noyabr üçtərəfli razılaşmasından 4 ay keçdiyi bir vaxtda Ermənistanda iqtisadi böhranla yanaşı, hərbi-siyasi böhran da dərinləşməkdədir. Son günlər Baş nazir Nikol Paşinyanla Baş Qərargah rəisi Onik Qasparyan arasında yaşanan münaqişə də ölkədəki qarşıdurmanı pik həddə çatdırıb. Müxalif toplum parlament binası önündən çəkilmir... "Həftə içi"nə bu mövzuda müsahibəsində sabiq Xarici İşlər naziri Tofiq Zülfüqarov N.Paşinyanın istefaya məcbur edilməsi ehtimalından, işğalçı ordu komandanlığında yaranmış qarşıdurmadan, xarici güclərin Paşinyan hakimiyyətinə münasibətindən danışıb, Qarabağda genişmiqyaslı hərbi əməliyyatların bərpa olunacağı haqda söz-söhbətlərə və s. münasibət bildirib.*

# "Ermənistana layiq olan fiqur elə Paşinyandır..."

***- Tofiq müəllim, Ermənistan prezidentinin Baş Qərargah rəisinin istefaya göndərilməsi ilə bağlı son mövqeyi də göstərdi ki, deyəsən, Paşinyan hakimiyyətinin istefaya məcbur olması, devrilməsi ehtimalı çox azdır. Siz necə düşünürsüz?***

- Bilirsiniz, müxtəlif hadisələr baş verə bilər, ancaq hakimiyyəti devirmək üçün hansısa bir məntiqli ideya və əsas olmalıdır. Mən eks-prezident R.Köçəryanın mətbuat konfransına da tam baxmışam, keçmiş xarici işlər naziri Vardan Oskanyanın son məqaləsini də oxumuşam. Belə qərara gəlmişəm ki, onların təklifləri çox bəsitdir. Yəni onlar köhnə siyasətə qayıdış etməyə çalışırlar ki, guya bu halda 1990-cı illərdə olduğu kimi, Rusiya Ermənistanın köməyinə gələcək. Hesab edirəm ki, bu cür baxışlar Ermənistan müxalifəti üçün real nəticə hasil etməyəcək. Əvvəla, bu ölkənin həm siyasi, həm iqtisadi, həm də demoqrafik baxımdan imkanları tam tükənib. İkincisi, Rusiya da əvvəllər olduğu kimi, Ermənistanda öz siyasətini yeritmək iqtidarında deyil. Buna ehtimal çox azdır. Ortada Azərbaycanın güclənməsi, Türkiyə amili və s. faktorlar var.

Yəni geosiyasi vəziyyət tam dəyişib. Üçüncüsü, heç hazırda rusların da Ermənistanla ciddi məşğul olmağa o qədər həvəsi yoxdur. Buna həvəsləri olsaydı, Ermənistanı "qulpsuz çemodan" adlandırmazdılar. Təbii ki, hansısa təxribatları-filanı istisna etmirəm. Vəziyyətə real yanaşanda, erməni cəmiyyətindəki diskussiyaları izləyəndə belə nəticəyə gəlmək olur ki, oradakı müxalif siyasətçilər nəsə yeni bir şey təklif edə bilən deyillər. Belə çıxır ki, erməni toplumu üçün də Paşinyanın Qərbə yönəlik siyasəti daha perspektivli görsənir. Bu halda ABŞ-dan, Avropadan yardımlar, investisiyalar alınması və özlərinin dediyi kimi, əllərində qalan ərazilərdə dövlətçiliklərini bərpa etmək perspektivləri var. Ermənilər üçün ən əsası odur ki, hazırda ölkədəki mənfi demoqrafik proseslər, yəni kütləvi miqrasiya və depopulyasiya dayandırılsın...

***- Sizcə, regionda və ümumiyyətlə, dünyadakı hansı aparıcı dövlətlər üçün Paşinyanın devrilməsi sərfəlidir?***

- Doğrudur, köhnə stereotiplər əsasında belə bir baxış da formalaşıb ki, guya Rusiya Paşinyanı devirmək və hakimiyyətə öz rusiyapərəst tərəfdarlarını gətirmək istəyir. Amma gerçək olaylar göstərir ki, bu heç də belə deyil. Yəni Ermənistan cəmiyyətini real olaraq idarə edən siyasətçinin Paşinyan olduğu bilindi. Bu baxımdan Moskva da hesab edir ki, bu hakimiyyət dövründə də Ermənistanda öz siyasətini yeridə bilər. Regiondakı digər ölkələri götürsək, Azərbaycan və təbii ki, Türkiyə üçün də Paşinyanın hələlik hakimiyyətdə qalması bu və ya digər cəhətdən sərfəlidir...

***- İran da deyəsən, tərəddüd edir Paşinyan məsələsində?...***

- Təbii ki, İran Ermənistanda Qərbin mövqelərinin güclənməsini istəmir, amma reallığı da heç kəs inkar edə bilməz. Ermənistanın olanı budur...

***- Əvvəldən Paşinyanı "Sorosun adamı" adlandırırlar. Görəsən, Sorosun başqa sözlə, ABŞ-ın müəyyən dairələrinin Nikolu əvəzləmək üçün digər bir ehtiyat fiquru varmı?***

- Hazırda müxalif siyasi meydanda qərbyönümlü bir siyasətçi görmürəm. Ortaya çıxan Robert Köçəryan, Manukyan və Oskaryan-filandır. İkincisi, müxalifət arasında birlik yoxdur. Fəal görünən Vazgen Manukyanın da Köçəryanla münasibəti o qədər yaxşı deyil. Yəni onlar müxalifətdə birinci simanın kimin olması uğrunda dava edirlər...

***- Yəqin ki, burada Manukyanın irəvanlı, Köçəryanın qarabağlı olması da rol oynayır?..***

- Bəli. Çox güman ki, bu amilin də rolu var...

***- Bəs sizcə, Vazgen Manukyanı hansı güclər idarə edir? Rusiya, yoxsa?..***

- Hesab edirəm ki, Manukyan Qarabağ klanının hakimiyyətə qayıdışı ehtimalının qarşısını almaq üçün daxili güclər tərəfindən dəstəklənir. Ermənistan və Qarabağ erməniləri arasında gərginlik həmişə var idi, indi də müharibədəki məğlubiyyətdən sonra da özünü büruzə verir. Paşinyan devrilsə belə, Qarabağ klanının hakimiyyətə qayıtmasında böyük problemlər olacaq. İrəvanlı Manukyana gəlincə, zənnimcə, onun da Paşinyana ciddi rəqabət yaratmaq imkanı olmayacaq... Bizim üçün nə qədər gülməli görünsə də, Paşinyan erməni toplumu üçün bir natiq kimi də daha zirək görsənir və ermənilərə hansısa işıq yolunu göstərir. Yəni deyir ki, Rusiyadan uzaqlaşıb Qərbə yönələk, bizə kömək edərlər, regionda dinc münasibətlər yaradarıq və s. Bu baxımdan onun davranışı ermənilər üçün daha məntiqlidir. Hər halda Ermənistan cəmiyyətinə layiq olan fiqur odur. Bir sözlə, hesab edirəm ki, regionun və dünyanın ciddi oyunçularının real mövqeyi elə Paşinyanın hakimiyyətdə qalmasına gətirib çıxaracaq...

> *"Ermənilərin gözləri qarşısında 33 ilin "miatsum" hay-küyü 44 gün ərzində puç oldu...*

***- Baş Qərargah rəisi Onik Qasparyanın oyunu haradan idarə olunur? Bunun sonu nə ilə bitəcək?***

- Birincisi, nəzərə almaq lazımdır ki, Qasparyanı o vəzifəyə təyin edən elə Paşinyan özüdür. İkincisi, hesab edirəm ki, yüksəkrütbəli hərbçilər arasında yaranmış bu qarşıdurma Paşinyanın hakimiyyətdən uzaqlaşmasına səbəb olmayacaq. Onsuz da Azərbaycanın "dəmir yumruğu"ndan əzilmiş işğalçı erməni ordusunu tamamilə dağıdacaq, onun sonuna çıxacaq. Odur ki, bu baxımdan da Ermənistanın revanş göstərmək, yəni Azərbaycan ərazilərini yenidən işğal etmək cəhdi söhbəti daha uzaqlara gedir. Bütün bunların nəticəsində Ermənistanın Rusiyadan uzaqlaşma prosesi daha da güclənəcək.

Belə görünür ki, Rusiya da buna hazırdır. Yəni Kreml Ermənistanın Qərbə yönəlmə prosesinin qarşısını almaq üçün hansısa hərəkətlər etsə də, etməsə də, ermənilərin tam könlünü almaqdan ötrü hazırda onun elə bir potensialı yoxdur... Ona görə də Türkiyə ilə birliyimizi də nəzərə alsaq, Ermənistan Azərbaycanla müqayisədə Rusiya üçün normal partnyor kimi bizimlə rəqabət edə bilməz. Odur ki, elə Moskva da Ermənistana yox, bizə stavka edəcək...

***- O da var ki, Rusiya Ermənistandakı hərbi mövqelərini də gücləndirməyə çalışır...***

- Hesab edirəm ki, Rusiyanın istər hazırda Ermənistanda mövcud olan 102-ci bazası, istərsə də sonra yaradılacaq bazası onun üçün aparıcı rol oynaya bilməz. Bəzən deyirlər ki, guya Moskva Qarabağda da hərbi baza yaratmağa çalışır. Bu da həm beynəlxalq hüquq baxımından, həm də Rusiyanın maraqları, eyni zamanda Azərbaycan ərazisindəki rus hərbi kontingentinin formatı, silahlanması və texnikası baxımından da məntiqsiz bir baxışdır...

Digər tərəfdən, indiki dövrdə müasir silahların müəyyən bir coğrafi nöqtədə yerləşdirilməsi o qədər də vacub deyil. Məsələn, hamının yadındadır ki, Rusiya Xəzər dənizindəki gəmilərindən "Kalibr" raketləri ilə heç bir problemsiz Suriyadakı hədəfləri vurdu. Bu baxımdan yüz milyonlarla xərc çəkib Ermənistanın və ya Azərbaycanın dağlarında hərbi bazalar yaratmaq heç də sərfəli deyil. Və uzaqvuran artilleriya, raket qoşunları, aviasiya, dronlar olan yerdə silahlı əsgərlərə də o qədər ehtiyac yoxdur...

***- Söhbət ondan gedir ki, son Qarabağ savaşından sonra Rusiya sanki Ermənistanın bütün sərhədlərinə, yəni Azərbaycanın yerdə qalan və Gürcüstanla da sərhədlərinə öz qoşunlarını yerləşdirməyə çalışır... Son günlər Qazax, Tovuz rayonlarımızla həmsərhəd Tavuş vilayətində də rus hərbçilər görünməyə başlayıb...***

- Bəli, belə məlumatlar var. Hesab edirəm ki, bu, Azərbaycanın sərhədlərinin bərpası prosesi ilə, o cümlədən Qazaxın 7 kəndinin qaytarılması məsələlərinin tənzimlənməsi ilə bağlıdır... İkincisi də Ermənistan ordusundakı hərbi böhranın tamamlanması üçün Rusiya ordusu orada lazımdır. Belə baxanda bizim üçün əsas olan sərhədlərimizin bərpasıdır. Ermənistanda Rusiya və ya Ermənistanın öz ordusunun olmasının bizim üçün prinsipial əhəmiyyəti yoxdur...

***- Tofiq bəy, tutaq ki, Ermənistanda hazırda hakimiyyətə gəlməkdən ötrü canfəşanlıq edən bütün aparıcı siyasi fiqurlar, eləcə də Qarabağdakılar mitinq, çıxış və digər populist təbliğatlarını dayandırdılar. Yəni Azərbaycan və Türkiyə əleyhinə türkəfob, revanşist çıxışlar durduruldu. Bir sözlə, deyək ki, erməni toplumu öz ixtiyarına buraxıldı. Sizcə, belə halda Ermənistan cəmiyyəti hansı mövqe tutar?***

- Hesab edirəm ki, erməni toplumunun birinci istəyi ondan ibarətdir ki, sərhədlər açılsın və ölkədəki iqtisadi durum düzəlsin. Digər tərəfdən, sosioloqlar belə bir nəticəyə gəliblər ki, bu ilin sonundakı ən azı, 200 min insan Ermənistanı tərk edəcək. İkincisi də görünən odur ki, artıq 10 Noyabr üçtərəfli bəyannaməsindən sonra qəsbkar ölkədə emosiyalar səngiyib. Və indi Ermənistanın yoxsul təbəqəsi əsasən onları məşğul edən məsələlərlə məşğul olacaq... O da bəllidir ki, 30 il ərzində çökdürülmüş "miatsum", yəni Qarabağın birləşdirilməsi layihəsini yenidən bərpa edilməsinin də tərəfdarı çox olmayacaq. Səs-küy edənlər, populist çıxışlar edənlər olacaq. İnsanlar isə artıq buna inanmayacq. Gözlərinin qarşısında 33 ilin bu hay-küyü 44 gün ərzində heç nə oldu...

***- Tofiq bəy, bütün bu dediklərimizdən belə çıxır ki, son vaxtlar barəsində şayiələr yayılan Qarabağda genişmiqyaslı əməliyyatların bərpası ehtimalı da çox azdır?..***

- Qarabağ və ya Ermənistanla sərhədin bu və ya digər hissəsində təxribatları istisna etmək olmaz. Azərbaycan tərəfi həmin təxribatlarla bağlı öz ərazisi çərçivəsində lokal anti-terrror əməliyyatları apara bilər, amma genişmiqyaslı əməliyyatlar istisna olunur. Həm də ona görə ki, öncə dediyim kimi, Ermənistanın bunun üçün heç bir imkanı yoxdur...

*✍ Sultan Laçın*

# Azərbaycan Macarıstanın mövqeyini yüksək dəyərləndirir



**"Bu gün Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə danışıqlarımız başlanıb. Günün birinci yarısında ölkələrimiz arasında hərtərəfli münasibətlərin inkişafına dair müzakirə keçirilib".**

Bunu Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşdən sonra xarici işlər naziri Ceyhun Bayramov bildirib. C. Bayramov deyib ki, Prezident İlham Əliyev Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonu qəbul edib: "Prezident görüşdə ikitərəfli münasibətlər və bölgədəki yeni vəziyyətə dair baxışlarını bölüşüb".

Xarici işlər naziri bildirib ki, Azərbaycan-Macarıstan münasibətləri müxtəlif sahələrdə inkişaf edir: "Uzun illər ərzində Dağlıq Qarabağ münaqişəsi mövcud olan zaman Macarıstan Azərbaycanın haqlı mövqeyini dəstəkləyib. Azərbaycan Vətən müharibəsində Macarıstanın mövqeyini yüksək dəyərləndirir. Regionda yeni təhlükəsizlik formatı yaranıb. 9 noyabr 2020-ci il tarixli və 11 yanvar 2021-ci il tarixli bəyanatlar 30 illik təcavüzə, işğala son qoyub, regionun inkişafı baxımından yeni imkanlar yaradıb. Azərbaycan ölkələrin suverenliyi və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında münasibətlərin inkişafını dəstəkləyib".

Nazir onu da vurğulayıb ki, Azərbaycan hazırkı dövrü postkonflikt dövrü kimi dəyərləndirir. C. Bayramov qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən bu dövrdə işğaldan azad edilmiş ərazilərdə dost və tərəfdaş ölkələrlə birgə əməkdaşlıq ediləcəyi elan olunub: "Macarıstanın bu sahədə fəaliyyəti kifayət qədər geniş müzakirə olunub. Macarıstan tərəfindən atılan konkret addımlar yüksək dəyərləndirilir. Macarıstanın "EksimBank"ı işğaldan azad olunmuş ərazilərdəki macar şirkətlərinə 100 milyon dollar ayırıb. Eyni zamanda, Azərbaycan tərəfi Macarıstanın işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi ilə bağlı ianəsini yüksək dəyərləndirir".

Postmünaqişə dövründə Macarıstan şirkətlərinin böyük marağını görürük. Ceyhun Bayramov bildirib. C. Bayramov deyib ki, ilkin mərhələdə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, görüləcək işlərin planlaşdırılması həyata keçirilir: "Bir sıra böyük infrastruktur layihələrin də artıq həyata keçirilməsinə başlanılıb. Bu gün dəmir yolu tikintisi sahəsində macar şirkətlərinin təcrübəsi barədə fikir mübadiləsi aparıldı. Yol tikintisi ilə bağlı müzakirə oldu. İşğaldan azad edilən ərazilərdə böyük kənd təsərrüfatı potensialı var. Nümunəvi bir kəndin Macarıstan təcrübəsi əsasında "ağıllı kənd" konsepsiyası ilə tikilməsi ətrafında müzakirə aparıldı. Mədən və turizm sahəsində də geniş potensial var. Ölkələrimiz arasında ikitərəfli münasibətlərlə bağlı da geniş fikir mübadiləsi aparılıb. Macarıstanın sədrliyini nəzərə alaraq, Avropa Şurasının imkanlarından postkonflikt dövründə konfliktə məruz qalmış insanların reabilitasiyasında istifadə etmək də müzakirə mövzusu oldu". Xarici işlər naziri bildirib ki, Macarıstanın əsas ticarət tərəfdaşı Çindir: "Azərbaycan da Çinlə Macarıstan arasında yerləşir. Bu aspektdə tranzit imkanları da geniş müzakirə olundu".

■ **"Prezident İlham Əliyev Şərqdən Qərbə böyük dəmir yolu tikintisinin nəzərdə tutulduğunu bildirdi. Macarıstanın bu sahədə böyük təcrübəsi var". Bunu isə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto bildirib.** P. Siyarto deyib ki, Macarıstanın yol tikintisi ilə məşğul olan şirkətləri var: "Prezident ağıllı şəhər və kəndlərin tikilməsi barədə danışdı. Macarıstan şirkətləri "ağıllı şəhər" tikintisində iştirak edə bilər. İşğaldan azad edilən ərazilərdə su idarəetməsi böyük əhəmiyyət kəsb edir və bu sahədə təcrübəmiz var. Eyni zamanda, heyvandarlıq sahəsində təcrübəsi olan şirkətlərimiz var. Bu şirkətlər Qarabağın yenidən qurulmasına böyük töhfə verə bilərlər".

"2020-ci ilin sonunda yeni reallıq ortaya çıxdı, Cənub Qaz Dəhlizi istifadəyə verildi", - Peter Siyarto deyib. P. Siyarto bildirib ki, bu ilin sonunda Macarıstan Cənub Qaz Dəhlizinə birləşəcək: "Macarıstan qaz boru xətləri Serbiya qaz kəmərləri ilə birləşəcək. Macarıstanın Cənub Qaz Dəhlizindən qaz alması vacibdir. Azərbaycan qaz istehsalını artıra da bilər. Bunun nəticəsində biz əhəmiyyətli miqdarda qaz ala və 2023-2024-cü illərdə Azərbaycan qazından asılı ola bilərik. Hətta SOCAR-la danışıqlar da başlanıb ki, lazımi kəmərlər tikilsin".

*✍ Hafta.az*

# Sənədsiz evlər inventarlaşdırılır

◂ əvvəli 1-ci səhifədə

Yaranmış digər problem isə, vətəndaşın öz evində qeydiyyata düşə bilməməsidir. Bunun da fəsadlarına elə yaxın keçmişdə - sərt karantin rejimi dövründə şahid olduq. Çıxarışlı mənzillərin alqı-satqısı zamanı dövlətə hər kvadratmetrə görə müəyyən miqdarda vergi ödənilir. Burada qiymət kvadratı 12 manatdan 60 manata qədər dəyişir. Vətəndaş onsuz da çıxarışsız evini hansısa yolla satmağı bacarır. Əvvəllər evə yatırım məqsədilə baxılırdısa, sənədləşmədə yaranan problem səbəbi ilə indi yalnız ehtiyacı olanlar mənzil alır. Bütün bu səbəblər insanlarda bu sahəyə inamsızlıq yaradıb".

Yeri gəlmişkən sonda bir məqamı da diqqətinizə çatdıraq ki, Abşeron Rayon İcra Hakimiyyətinin istifadəsindən Bakı Şəhər İcra Hakimiyyətinin idarəçiliyinə qaytarılması nəzərdə tutulan ərazilərin müəyyənləşdirilməsi işlərinə başlanılıb. Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatda deyilir.

Sənəddə qeyd edilib ki, həmin ərazilərin sərhədləri yerquruluşu qaydasında müəyyən edilərək, onlara dair hüquqların mövcudluğunun real vəziyyətlə müqayisə edilməsi nəzərdə tutulub. Bununla əlaqədar qeyd olunan ərazilər haqqında ilkin mərhələdə elektron formada məlumatlar əldə edilib. Aparılmış monitorinqlər nəticəsində Abşeron rayon İcra Hakimiyyətinin idarəçiliyində olan və Bakı şəhərinin Xəzər, Sabunçu, Suraxanı və Binəqədi rayonları ərazisində yerləşən 18 min hektar torpaq sahəsi müəyyən edilib və Bakı Şəhər İcra Hakimiyyətinin idarəçiliyinə qaytarılması təklif olunub.

Hesabatda bildirilir ki, məsələnin həlli ilə əlaqədar torpaq sahələrinə dair təqdim edilmiş məlumatların araşdırılması, inventarlaşma işlərinin həyata keçirilməsi və torpaqların səmərəli istifadəsi ilə bağlı yekun rəyin hazırlanması məqsədilə aidiyyəti qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılmasının məqsədəuyğunluğu barədə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən aidiyyəti qurumlara müraciət edilib.



Abşeron və Qobustanda üzərində evlər tikilən kənd təsərrüfatı təyinatlı torpaqların kateqoriyası dəyişdiriləcək. Sənəddə qeyd edilib ki, üzərində fərdi yaşayış evləri inşa edilmiş kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi üçün Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli qərarı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"na uyğun olaraq torpaq mülkiyyətçiləri tərəfindən Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmalıdır.

Hesabatda nəzərə çatdırılır ki, Abşeron rayonunun bələdiyyələrinin hüdudları daxilində faktiki olaraq tikintilər altında olan 8125 hekar və Qobustan şəhəri üzrə 78 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin mövcud istifadə vəziyyəti nəzərə alınmaqla kateqoriyasının dəyişdirilməsi məqsədi ilə Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmasının zəruriliyi barədə İqtisadiyyat Nazirliyi tərəfindən Abşeron Rayon İcra Hakimiyyətinə və Qobustan Rayon İcra Hakimiyyətinə müvafiq məktublar ünvanlanıb. Abşeron rayonu ərazisində kənd təsərrüfatı təyinatlı torpaqlarda mövcud olan tikililərlə əlaqədar aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə müzakirələr aparılır, tədbirlər plan tərtib edilib və çölölçmə işləri yerinə yetirilib. Bununla yanaşı, kənd təsərrüfatı təyinatlı torpaqlar üzərində 20 minə yaxın fərdi yaşayış evi, 6 minə yaxın müxtəlif təyinatlı qeyri-yaşayış tikililəri barədə məlumatlar toplanıb, xəritə materialları tərtib edilib, arayışlar və məlumatlar hazırlanıb və adiyyatı qurumlarda baxılır. Sənəddə bildirilib ki, Qobustan rayonu ərazisində üzərində 300-dən artıq yaşayış evi inşa edilmiş 78 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin təyinatının dəyişdirilməsi ilə bağlı müvafiq sənədlər hazırlanır və yaxın vaxtlarda müəyyən olunmuş qaydada aidiyyəti üzrə müraciət ediləcək.

*✍ Banu*

# Peşə təhsili yenidən canlanır

## Layihə

**_Azərbaycanda son illər peşə təhsili sahəsində ciddi dönüş yaranıb. Ölkəmizdə peşə məktəbləri yenidən qurulur, yeni peşə təhsili mərkəzləri fəaliyyətə başlayır, əmək bazarının tələblərinə uyğun kadr hazırlığına diqqət artırılır. Bunun nəticəsidir ki, son illər peşə təhsilinə yiyələnmək istəyənlərin sayı da əhəmiyyətli dərəcədə artmaqdadır. Məsələn, 2019-2020-ci tədris ili üzrə peşə təhsili pilləsinə müraciət edənlərin hər iki mərhələ üzrə ümumilikdə sayı 20 144 nəfər olub, onlardan 19 128 nəfəri ixtisas seçimi edərək müraciətini təsdiqləyib._**

**_Son illər bu sahədə həyata keçirilən islahatlar peşə təhsilinə marağı əhəmiyyətli dərəcədə artırıb_**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması




Müraciətçilərin 69.2 faizini kişilər, 30.8 faizini isə qadınlar təşkil edib. Qeyd edək ki, II mərhələ zamanı təqdim olunan boş qalmış 9 898 yerdən 4 141-i dövlət hesabına, 5 757 yer isə ödənişli əsaslarla həyata keçirilib. II mərhələ üzrə 7314 nəfər ixtisas seçimi edərək müraciətini təsdiqləyib.

### Qəbul qaydaları

**Qeyd edək ki, peşə təhsili müəssisələrinə qəbul Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən aparılır. Ötən ildən başlayaraq ilk dəfə olaraq peşə təhsil müəssisələrinə qəbul olmaq istəyənlər elektron qaydada qeydiyyatdan keçərək müraciət ünvanlaya biliblər.**

Qeydiyyat ödənişsizdir. Peşə təhsil müəssisələrinə ümumi və ya tam orta təhsil bazasını bitirən şəxslər müraciət edə bilərlər. Qeydiyyatdan keçmiş namizədlərin elektron ərizələrindəki məlumatlarının doğruluğu yoxlanıldıqdan sonra müraciət edən şəxsin ixtisaslar üzrə seçimi sistem tərəfindən təsdiqlənir. Peşə təhsili müəssisələrinə qəbul ərizəçinin attestatında göstərilən müvafiq fənlər üzrə qiymətlərinin orta balı əsasında aparılır.Tələbə qəbulu prosesində hər şəxsə maksimum 5 ixtisas üzrə seçim etmək imkanı yaradılır. Müraciətlər barədə məlumat Şəxsi kabinetim bölümündə yenilənir. Müsabiqədə iştirak edən şəxslərə müraciətin nəticəsi barədə sms vasitəsilə də məlumat təqdim edilir. Müsabiqədən uğurla keçən şəxslər növbəti mərhələdə qəbul olduqları müəssisəyə sənədlərin əslini təqdim edilməsi üçün dəvət olunurlar. Peşə təhsili pillәsi üzrə təhsil imkanı həm dövlət vəsaiti hesabına, həm də ödənişli əsaslarla yaradılır. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər, I, II və III dərəcə əlilliyi olan şəxslər, şəhid ailəsinin üzvləri, 20 yaşına çatmamış və I dərəcə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslərin dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Həmçinin 2020-2021-ci tədris ilində müvafiq sosial həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin yarısı dövlət büdcəsinin vəsaiti hesabına ödənilmə həyata keçirilib.Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət peşə təhsili müəssisələrində yalnız ödənişli əsaslarla təhsil ala bilər.

Məlumat üçün bildirək ki, 2020-2021-ci tədris ili üzrə tələbə qəbulu 66 peşə təhsil müəssisəsində 120 ixtisas üzrə aparılıb. Qəbul planına əsasən cari ildə ümumilikdə təqdim olunan 18 260 yerdən 11040-ı dövlət hesabına, 7 220 yer isə ödənişli əsaslarla həyata keçirilib. Diqqətçəkən məqam ondan ibarətdir ki, 2020-2021-ci tədris ili üzrə müraciət edən şəxslər arasında yalnız ümumi və ya tam orta təhsil bazasını bitirən şəxslər deyil, həmçinin orta ixtisas və ali təhsili başa vurmuş şəxslər də yer alıb. Məsələn, peşə təhsili müəssisələrinə qəbulun I mərhələsi çərçivəsində 109 orta ixtisas təhsilli və 73 ali təhsilli şəxs müraciət edib.

Yeri gəlmişkən, 15 fevral tarixindən etibarən peşə təhsili müəssisələrində praktiki məşğələlər üzrə dərslərin əyani formada təşkilinə də başlanılıb. Hazırda müəyyən ixtisaslar üzrə istehsalat təlimi və təcrübəsi ilə bağlı dərslərin əyani, ümumtəhsil fənləri və ixtisas modulları üzrə nəzəri dərslərin isə distant formada təşkili həyata keçirilir. İKT və turizm sahəsi üzrə müəyyənləşdirilmiş 9 ixtisas üzrə praktiki məşğələlərin (istehsalat təlimi və təcrübəsi) distant formada tədrisi davam etdirilir. Ümumilikdə, istehsalat təlimi və təcrübəsi ilə bağlı dərsləri əyani formada təşkil edilən ixtisaslar üzrə təhsil alan tələbələrin sayı 18 860 nəfərdir ki, bu da ümumi tələbə sayının 88 faizinə bərabərdir. İstehsalat təliminin təşkili zamanı təhsil müəssisəsində tələbə sıxlığının qarşısını almaq məqsədilə dərs cədvəllərində müəyyən dəyişikliklər edilib. Tədris planları və dərs cədvəllərinə əsasən, ixtisasdan asılı olaraq istehsalat təlimi dərsləri həftədə 2 dəfə əyani formada təşkil edilir. İstehsalat təcrübəsi dərsləri isə işəgötürən təşkilatlarda xüsusi karantin rejimi üzrə qaydalar və tələblər gözlənilməklə əyani təşkil edilir. Peşə təhsili müəssisələrində təşkil edilən qısamüddətli kurslarda da əyani tədris bərpa edilib.

### Dərs vəsaitləri yenilənir

**2020-2021-ci tədris ilində də peşə təhsili istiqamətində yeniliklər davam etdirilməkdədir. Təhsil Nazirliyindən hafta.az-a verilən məlumata görə, ilk dəfə olaraq ixtisaslar üzrə dərsliklərin çap edilməsinə başlanılıb. Məqsəd peşə təhsili pilləsi üzrə tədrisin keyfiyyətinin artırılmasıdır.**

İlkin mərhələdə 96 adda ixtisas dərsliyinin nəşri planlaşdırılır. Ümumilikdə, peşə təhsili müəssisələri üçün cari tədris ili üzrə 184 067 ədəd dərs vəsaitinin çapı planlaşdırılır. Nəşr edilən və peşə təhsili müəssisələrinə paylanılması nəzərdə tutulan ixtisas modulları üzrə dərsliklər əsasən turizm, kənd təsərrüfatı, sənaye və avtomobil istismarı sahələrini əhatə edir.

Qeyd edək ki, ixtisas dərslikləri ilə yanaşı, bütün ixtisas qrupları üzrə tədrisi nəzərdə tutulan baza modullarına dair bilikləri özündə əks etdirən dərsliklərin çapı da yekunlaşdırılıb. Çap edilən dərsliklər turizm istiqaməti üzrə "Turizm təşkilatçısı", "Turizm sahəsində iaşə üzrə mütəxəssis", "Mehmanxana inzibatçısı", kənd təsərrüfatı istiqaməti üzrə "Aqroservis mütəxəssisi", "Bitkiçilik mütəxəssisi", Heyvandarlıq mütəxəssisi", iaşə və xidmət istiqaməti üzrə isə "Geyim üzrə dizayner", "Dərzi" və bu kimi digər ixtisasları əhatə edir. Ötən ildən etibarən ümumtəhsil bazasından qəbul mümkün olan və orta təhsil fənlərinin tədrisi aparılan peşə təhsili müəssisələrinə ümumtəhsil fənləri üzrə dərsliklərin çapına da başlanılıb. Ümumtəhsil fənləri üzrə 26 adda dərslik olmaqla, ümumilikdə 99 622 ədəd dərsliyin peşə təhsili müəssisələrinə paylanılması yekunlaşmaq üzrədir. Növbəti tədris ilində peşə təhsili üzrə dərslik təchizatının daha da genişləndirilməsi nəzərdə tutulur. Çapı və paylanılması nəzərdə tutulan ixtisas dərsliklərinin sayının artırılması ilə yanaşı, yeni ixtisas dərsliklərinin də çapı prioritetlər sırasındadır.

### Ali məktəblərə imtahansız qəbul imkanı

**Artıq Azərbaycanda yüksək texniki peşə təhsili almış şəxslər ali təhsil müəssisələrinə imtahansız qəbul ola bilmək imkanına da malikdirlər. Belə ki, Azərbaycan Respublikasının 2020-ci il 24 aprel tarixli 59-VIQD nömrəli Qanunu ilə yüksək texniki peşə təhsilini bitirərək subbakalavr peşə-ixtisas dərəcəsi almış şəxslərin orta ixtisas təhsilini bitirmiş subbakalavrlara bərabər tutulması müəyyən edilib.**

2020-2021-ci tədris ilində ilk dəfə olaraq Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində "Nəqliyyat vasitələrinin texniki istismarı", "Kompüter sistemlərində proqram təminatı" ixtisasları üzrə yüksək texniki peşə təhsili səviyyəsinə qəbul həyata keçirilib. Təhsil müddəti 3 il olan bu tədris proqramlarında təhsil alan tələbələr subbakalavr peşə-ixtisas dərəcəsi alacaq və təhsilini müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə imtahansız qəbul olmaq hüququ əldə edəcəklər. Qeyd edək ki, növbəti tədris ilindən etibarən yüksək texniki peşə təhsili səviyyəsi üzrə qəbul aparılacaq ixtisasların sayının artırılması nəzərdə tutulur.

### Ekspert rəyi...

■ **Mövzu ilə bağlı hafta.az-la fikirləri bölüşən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov bildirib ki, peşə təhsili iqtisadiyyatın gələcəyi, həmçinin əmək bazarı, təhsil təminatı və iqtisadiyyat arasında olan məqsədyönlü əlaqənin qurulması baxımından böyük əhəmiyyət daşıyır:** "Bu baxımdan peşə təhsilinin inkişaf etdirilməsi, müasir tələblərə uyğunlaşdırılması müsbət addımdır. Hazırda xüsusən kənd təsərrüfatı sahəsində bir sıra peşələrin - üzümçülük, pambıqçılıq, maldarlıq və s. sahələrlə bağlı peşə təhsilinin inkişafına, o cümlədən kadrların hazırlanmasına ehtiyac var. Bu baxımdan, rayonlarda həmin sahələr üzrə peşələr tədris olunmalıdır". Professorun fikrincə, peşə məktəblərinin inkişafı insan kapitalının inkişafı üçün əhəmiyyətli töhfə ola bilər: "Dövrün tələbatına uyğun gələn peşələr maraqlıdır. Hazırda sənaye məktəbləri açırlar. Həmin məktəblərin yanında peşə kursları da olmalıdır ki, şagirdlərə öyrətsinlər. Peşə məktəblərində tədris edilən peşələrlə bağlı gənclər arasında təbliğat da olmalıdır. Bu, gənclərin gələcək yolunu işıqlandırar. Yəni onlar həmin sahəni öyrənəndən sonra gələcəkdə işlə təmin olunacaqlarını və kifayət qədər yaxşı məvacib alacaqlarını da bilməlidirlər".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## Layihə

**_Gələcək nəsillərin sağlam olması həm də bu gün qurulan ailələrdən asılıdır. Çünki valideynlərin sağlamlığı onların gələcək övladlarının da sağlamlığına təsir edir. Milli genofondun qorunmasını, əhalinin sağlamlığını dövlətin əsas prioritetləri sırasında görən ölkələr bu məqsədlə davamlı olaraq müxtəlif proqramlar həyata keçirirlər._**



# Nikahöncəsi tibbi müayinə

**_Ekspertlər hesab edirlər ki, bu müayinələrin keçirilməsi ilk növbədə genofondun sağlamlığı üçün əsasdır_**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Qeyd edək ki, Azərbaycan dövləti üçün də milli genefondun qorunması, əhalinin sağlamlığının təmin olunması, cəmiyyətdə sağlam ailələrin formalaşması əsas prioritet məsələlərdəndir. Bu istiqamətdə atılmış ən vacib addımlardan biri isə ölkəmizdə nikahdan öncə tibbi arayışın tələb olunmasıdır. Mütəxəssislər də hesab edirlər ki, nikaha daxil olmaq istəyən cütlüklərin tibbi müayinələrdən keçməsi olduqca əhəmiyyətlidir. Bu müayinələrin keçirilməsi ilk növbədə genefondun sağlamlığı üçün əsasdır.

### Tibbi arayış 1 ay müddətinə etibarlıdır

**Məlumat üçün bildirək ki, tibbi arayış almaq üçün müraciət edən zaman şəxsiyyət vəsiqəsinin əslini və surətini mütləq təqdim etmək lazımdır. Tibbi müayinə zamanı yoxlanışdan keçirilən xəstəliklər bunlardır:**

*1) hemoqlobinopatiyalar:*
*1.1. böyük beta-talassemiya;*
*1.2. aralıq beta-talassemiya;*
*1.3. drepanotalassemiya;*
*1.4. oraqvari hüceyrəli anemiya;*
*2) İİV/QİÇS;*
*3) sifilis*

Tibbi arayışın verilməsi müddəti nikaha daxil olmaq istəyən şəxslərin tibb müəssisəsinə müraciət etdiyi gündən etibarən 2 (iki) həftədən çox olmamalıdır. Tibbi arayışın etibarlılıq müddəti 1 (bir) aydır. Arayışın vaxtı keçdikdən sonra qeydiyyat şöbəsindən nikah üçün tarix alına bilinməz. Burda diqqət edilməli məqam nikah üçün qeydiyyatdan keçmə tarixidir, çünki, tibbi arayışın müddəti qeydiyyatdan keçmə tarixinə qədər hesablanır. Qeydiyyatdan keçdikdən sonra tibbi arayışın müddəti keçsə də sizin nikah tarixinizə heç bir təsiri olmur. Tibbi arayışı aldıqdan sonra 1(bir) ay keçməmiş nikah üçün qeydiyyat şöbələrindən və ya ASAN xidmətlərdən nikah günü almaq üçün müraciət edilməlidir.

ASAN xidmət mərkəzlərində tibbi arayışın verilməsi üçün xidmət haqqı bir nəfərə görə 9 manat nəzərdə tutulub. Arayışın verilməsi 1, 2, 3, 4, 5 saylı Bakı "ASAN xidmət" mərkəzləri və Sumqayıt regional "ASAN xidmət" mərkəzində - 5 iş günü; Sabirabad, Bərdə, Gəncə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakən regional "ASAN xidmət" mərkəzlərində - 9 iş günüdür. Bu prosesdə nikaha daxil olmaq istəyən şəxsin özü iştirak etməlidir. Arayış vətəndaşın özünə şəxsən təqdim edilir.

### Ailələrin sağlamlığı dövlət siyasətinin prioritetidir

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən tibb elmləri doktoru, professor Adil Qeybulla da hesab edir ki, nikahdan öncə tibbi müayinənin keçirilməsi əksər xəstəlik daşıyıcılarının üzə çıxmasına şərait yaradır:** "Əvvəllər insanlar nikah öncəsi yoxlanmırdılar. Məsələn, yalnız talassemiyalı uşaq doğulandan sonra valideynlər gedib yoxlanırdı və bu zaman aydın olurdu ki, hər iki valideyn talassemiya daşıyıcısıdır. Talassemiya proqramı çıxdıqdan sonra nikaha girənlərin yoxlanışı proqrama daxil oldu, belə aşkarlanma da təbiidir. Yəni bu yoluxucu, keçici xəstəlik deyil. Sadəcə olaraq talassemiya irsi yolla sonrakı nəsillərə ötürülə bilər. O baxımdan da talassemiyalı uşaqlar ana bətnində təyin oluna bilir. Əgər uşaq talassemiyalıdırsa, onun doğuşuna icazə verilmir. Talassemiya daşıyıcıları evlənincə, bu xəstəlik daşıyıcısı olan uşaqların da doğulma şansı çoxdur". Professor deyib ki, talassemiyanın ən ağır formalarına əksər hallarda bir-biri ilə qan qohumluğu olan nikahlarda təsadüf edilir. Talassemiya nəsildən-nəslə keçən çox ağır irsi qan xəstəliyidir: "Belə xəstələrdə lazım olan miqdarda hemoqlobin hasil olmur, qanla birlikdə bədənə dəmir də köçür ki, bu da orqanizmdə dəmir artıqlığı yaradır. Dəmir artıqlığı 11 yaşından sonra insanın qara ciyərini, ürəyi, sonra endokrin sistemini zədələyir. Belə uşaqlarda cinsi yetişkənlik əlamətləri əmələ gəlmir. Yığılmış dəmir ürək-damar çatışmazlığının inkişafı nəticəsində xəstənin ölümünə səbəb olur. Bu mənada nikah öncəsi müayinə zamanı yoxlanışdan keçirilən xəstəliklər sırasında talassemiyanın olması müsbət haldır".

«Təmiz Dünya» İctimai Birliyinin sədri Mehriban Zeynalova da hesab edir ki, bu addım gələcək nəslin sağlamlığına hesablanıb: "Nikahdan öncə tibbi arayışın tələb olunması həm evlənən cütlüklərin, həm də dünyaya gələcək övladların sağlamlığının qorunması baxımından çox önəmlidir. Qaydaların tətbiqi göstərir ki, ailələrin sağlamlığı dövlət siyasətinin prioritetidir. Əslində, evlənməyə, ailə həyatı qurmağa hazırlaşanların tibbi müayinədən keçməsi onların ailə həyatına necə məsuliyyətlə yanaşdığının göstəricisidir. Amma təəssüf ki, Azərbaycan cəmiyyəti bundan hələ çox uzaqdır. Azərbaycan mühitində ailələr çox zaman yalan üzərində qurulur. İstər ailələrin sosial vəziyyəti ilə bağlı, istərsə də evlənməyə hazırlaşan cütlüklərlə bağlı. Ailələr var ki, qızının, ya oğlunun, məsələn, ürək çatışmazlığı olduğunu qarşı tərəfə demir. Hətta övladlarının pis vərdişləri gizlədən ailələr də olur. Nə qədər belə faktlar var ki, evləndən sonra oğlanın, hətta bəzən qızların da narkotik aludəçisi olduğu üzə çıxıb, ailələr dağılıb, nəsillər arasında düşmənçilik yaranıb. Bizim cəmiyyət, təəssüf ki, ailə müqəddəsliyini unutmağa başlayıb və ilk gündən etibarən gələcək ailənin təməlini yalan üstündə qurmağa üstünlük verirlər". Ekspertin sözlərinə görə, ailələr var ki, müxtəlif irsi xəstəliklər üzündən xəstə uşaqlar dünyaya gəlir: "Bəsən müxtəlif yoluxucu xəstəliklər üzündən ər və arvad arasında birgə yaşayışda problemlər ortaya çıxır və bunlar bəzən ailələrin dağılması ilə nəticələnir. Bunu düşünən insan özünün də, həyatını bağlamağı düşündüyü insanın sağlamlığına laqeyd qalmamalıdır. Ailənin də, gələcək nəslin sağlamlığını da evlənən cütlüklər düşünməlidir. Evlənənlər anlamalıdırlar ki, sağlamlıq ailə həyatında ən önəmli məsələdir. Həmçinin doğulacaq uşaqların da gələcəyinin sağlam və ya qeyri-sağlam olacağı bu gün qurulan ailədən asılıdır. Hər bir sağlam düşüncəli insan öz sağlamlığının təminatçısı olmalıdır. Normal, ağlı başında insan anlamalıdır ki, ailə qurmaq yalnız iki nəfərin birgə yaşayışından ibarət deyil. Ata da, ana da övladlarının qatilinə çevrilməməlidirlər. Hansısa xəstə cütlükdən sabah xəstə uşaq dünyaya gələcəksə, bunun günahkarı da valideynlər olacaq, bədəlini də onlar ödəyəcəklər. Bu baxımdan gənclərin bu məsələdə diqqətli olması vacibdir".

### Sağlam ailənin təməli sağlam evliliklə qoyulur

■ **Məsələyə münasibət bildirən sosioloq Əhməd Qəşəmoğlu da nikahdan öncə tibbi arayışın tələb olunmasının cəmiyyət üçün lazımlı olduğunu bildirib.** O deyib ki, cəmiyyət günü-gündən mürəkkəbləşir, xəstəliklər çoxalır: "Təbii ki, belə bir zamanda bu addım cəmiyyətin xeyrinədir. Çünki ailələrin dağılmasının, ailədaxili gərginliklərin səbəblərindən biri də məhz tərəflərdən birinin, yaxud hər ikisinin sağlamlığında problemlərin olmasıdır. Bu, gələcəkdə də yeni nəslin daha sağlam doğulmasına kömək edəcək. Əslində, sağlam ailə məhfumu geniş anlayışdır. Bu qanun orada amillərdən biridir və sağlam ailənin qurulmasına müəyyən qədər kömək edir. Sağlam ailənin təməli həm də sağlam evliliklə qoyulur. Gələcək ailənin hər iki fərdi də bir-birini anlamaqla yanaşı mənəvi xüsusiyyətlərinə görə də uyğun olsa yaxşıdır. Ailədəki hər xırda narazılıqdan böyük problem yaradan tərəflərin sağlam ailə qurmaq şansı az olur ki, bunun zərərini də cəmiyyət çəkir".

### Yeri gəlmişkən...

**Azərbaycanda 2015-ci ildən aparılan bu müayinələr nəticəsində indiyədək nikaha daxil olmaq istəyən 720 897 nəfərdən qan nümunəsi götürülüb.**

Aparılan müayinələr zamanı 25 073 cütlükdən birində talassemiya daşıyıcılığı, 293 cütlüyün hər ikisində daşıyıcılıq aşkarlanıb. Bu müddət ərzində 2 802 nəfərdə sifilis, 740 nəfərdə HİV(QİÇS) qeydə alınıb. Ölkəmizdə bu ilin fevral ayı ərzində isə nikaha daxil olmaq istəyən 9 676 nəfər müayinədən keçib. Statistikaya görə, onların 373-də talassemiya daşıyıcılığı, 97-də sifilis, 21 şəxsdə isə QİÇS aşkarlanıb. Hər ikisində talassemiya daşıyıcılığı olan cütlüklərin sayı isə 7 olub.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## Müsahib

# ABŞ-ın təklif elədiyi Deyton variantı daha pis idi...

***44** günlük Vətən Müharibəsindən sonra regionun geosiyasi mənzərəsində baş verən dəyişiklik gündəmin əsas müzakirə mövzusu olaraq qalır. Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən sonra regiona sahiblənmək istəyən güclərin hərisliyi daha təhlükəli mərhələyə keçib. Avropa, Qərbin ermənipərəst mövqeyi ilə qaldırdığı "hərbi əsir" səs-küyü, Qarabağdan çıxmayacağını iddia edən Rusiya siyasətçilərinin hədəfləri fərqli olsa da, maraqları birdir. Belə bir şəraitdə Türkiyənin regionda əsas oyunçulardan birinə çevrilməsi də emosiyaları qızışdıran amillərdən hesab olunur. Bu və digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalib Səmədov maraqlı məqamlara diqqət çəkib.*

***- Abutalib müəllim, Vətən müharibəsindən sonra Ermənistandan yenidən silahlanma, müharibəyə hazırlıq bəyanatları səslənir. Paralel olaraq Qarabağda qalan sülhməramlıların erməni mövqeyindən çıxış edən davranışları bu ehtimalı nə dərəcədə gerçək edir?***

- Çox arzu edərdik ki, hərbi əməliyyatlardan sonra Qarabağdakı bütün məsələlər birdəfəlik həll olunsun, xalqda heç bir nigarançılıq qalmasın. Hərbi əməliyyatlar başlayan kimi həm ABŞ, həm Fransa kimi Avropa dövlətləri açıq şəkildə ermənipərəst mövqe tutdular. Rusiya müəyyən qədər nisbi neytrallıq göstərdi. Rusiya da BMT-də həmin dövlətlərlə birlikdə Azərbaycana qarşı 3 qətnamə qəbul etməyə çalışdılar. Bir neytral qətnamə qəbul olunsa da, ikisinin qarşısını ala bildik. Yəni biz həm müharibədə çox ağır döyüşlər aparmalı olduq, həm də diplomatiya sahəsində. Prezident bu sahədə çox böyük işlər gördü və müharibə zamanı 30-a yaxın xarici kütləvi informsiya vasitələrinə müsahibələr verdi. Biz Qarabağ məsələsini tam olaraq həll edə bilmədik. Könül istərdi ki, birdəfəlik bitsin. Təsəvvür edin ki, torpaqlarımız işğal olunub və bizə təklif olunur ki, Dağlıq Qarabağın müstəqilliyini tanıyın. Madrid prinsipləri də buna xidmət edirdi. Biz haradan, hara gəldiyimizi yaddan çıxarmamalıyıq. Kim istəməz ki, bu problem qurtarsın, ancaq təəssüf ki, Azərbaycan dünyanın ilk beşliyinə düşən ölkə deyil. Bizim güvəndiyimiz Türkiyə də dünyanın 17-18-ci dövlətidir. Biz üçtərəfli bəyanat imzaladıq ki, orada bizim üçün çox əlverişli maddələr var. Ərazi bütövlüyümüzü təmin eləsək də, tam suverenliyimiz təmin olunmadı. Bu da bizi qıcıqlandırır. Rusiya sülhməramlılarının Qarabağda yerləşdirilməsinə razılıq verdik. ABŞ-ın bizə təklif elədiyi Deyton variantı daha pis idi. Prezident Rusiya sülhməramlılarının fəaliyyətinə haradasa 3 dəfə müsbət qiymət verməklə yanaşı, kəskin iradlarını bildirib. Hesab edirəm ki, bu mövqe çox düzgündür və elə eləməliyik ki, bu proseslərdə sona qədər qalib çıxaq. Bu gün ermənilərlə ruslar arasında kəskin ziddiyyətlər ortaya şıxıb. Ermənilər "Rusiya bizi satdı", - deyirlər. Həm Rusiya-Türkiyə yaxınlaşması, həm də Rusiyanın bizə daha çox meyllənməsi müşahidə olunur. Belə məqamlardan istifadə eləməliyik. Baxın, Fransanın tutduğu mövqe açıq ermənipərəstdir. ABŞ-ın mövqeyi hələlik o qədər də aydın deyil. Mən bir vaxtlar Kosova təhlükəsindən danışanda deyirdilər ki, Kosova ayrı, biz ayrı. İndi Kosova qalıb kənarda, bizə deyirlər ki, Bosnya-Hersoqovina modelini götürün. Bu 1998-ci ildə bizə təklif olunan ümumdövlət prinsipinin dağıdılması modelidir. Separatizm ocaqları o vaxt təhlükəlidir ki, onların arxasında iri dövlətlər durur. Məsələn, Osetiyada, Abxaziyada separatizmin arxasında Rusiya, qarşısında isə ABŞ və Qərb durdu. Kosovada separatizmin arxasında Amerika, Qərb durdu, qarşısında isə Rusiya dayandı. Qabarağda isə bunların hamısı erməni separatizminin arxasında durub. Bu gün reallıqları nəzərə alaraq Rusiya müəyyən mənada kənara çəkilib. ABŞ-dan gələn Deyton sazişi ilə bağlı təklif və yaxud Fransanın mövqeyi göstərir ki, bu güclər Dağlıq Qarabağda yaşayan ermənilərə ən yüksək statusa nail olmağa çalışırlar.



**Abutalib Səmədov,**
Azərbaycan Naminə Alyans Partiyasının sədri

***- Azərbaycan əraziləri hərbi yolla işğaldan azad olunandan sonra üçtərəfli bəyannaməyə əsasən Rusiya sülhməramlılarından müəyyən gözləntilər var idi. Sizcə, Rusiya sülhməramıları öz missiyasını nə dərəcədə düzgün yerinə yetirir?***

- Prezident bu məsələyə xüsusi münasibət bildirdi. Dedi ki, xırda insidentlər var, amma bəyannamədə göstərilən şərtlər yerinə yetirilir. Bu prosesdə ən çox qəbul eləmədiyimiz məsələ 9-cu bəndin yerinə yetirilməməsidir. Yəni erməni silahlı qüvvələri tamamilə ərazidən çıxarılmalıdır. Rusiya sülhməramlıları bu məsələni həll eləmiyiblər. Bilirsiniz ki, Ağdamda qurulan monitorinq mərkəzində bizim 60 nəfər türk qardaşımız var. Bəyanatın maddələrinin yerinə yetirilməsinə nəzarət Monitorinq Mərkəzinin üzərindədir. Türk qardaşlarımız orda qəti mövqe tutub, erməni silahlılarının çıxardılması məsələsini qoymalıdırlar. Biz də bunu tələb eləməliyik, Qarabağda bir dənə də silahlı erməni qalmamalıdır. Belə məlumatlar yayılır ki, bu gün Ermənistandan Qarabağa bəzi terrorçu qruplar gətirilir. İnanmıram ki, rus sülhməramlıları buna yol verməklə o qədər ağılsız hərəkət eləsinlər. Belə davranış sülhməramlıların oradakı varlığını sual altına qoyur. Belə hallar bizə o əsası verir deyək ki, sizə ehtiyacımız yoxdur, ərazini tərk edin. Əsas məsələ odur ki, Qərbin mövqeyini tam biləndən sonra Rusiya sülhməramlılarının çıxarılması məsələsini qoya bilərik, amma hələ qəti mövqe yoxdur, hələ ABŞ rəhbərliyi səviyyəsində verilən bəyanatlar yoxdur.

> *"Terrorçular, diversantlarla bağlı Azərbaycan qəti mövqe tutmalıdır*

> *"Rusiya sülhməramlıları 5 ildən artıq Azərbaycanda qalmamalıdırlar*

> *"Ərazilər tam təhlükəsiz olana qədər bizim həmvətənlərimiz ora qayıtmamalıdır*

***- Avropa parlamentariləri, Qərb siyasətçiləri 60-dan çox diversantı hərbi əsir kimi təqdim edərək geri qaytarılması tələbi ilə çıxış edirlər. Bu nəyin göstəricisidir?***

- Siz təsəvvür edin ki, hərbi əməliyyatlar bitib, erməni diversiya qrupu mühasirəyə alınaraq tutulub və buna hərbi əsir deyirlər. Bunların ədaləti, bizə münasibəti budur, ümumiyyətlə, beynəlxalq münasibətə yanaşma budur. Özlərinin maraqlarına nə xidmət edirsə, onu da qabardırlar. Terrorçular, diversantlarla bağlı Azərbaycan qəti mövqe tutmalıdır. Biz yenə də güzəşt edib, əvvəlki kimi əsirləri təhvil versək, bunlar yenə də üstümüzə növbəti dəstələr göndərərlər. Erməni həyasızlığını biz bilirik. Qərbin tutduğu bu mövqe bizim üçün yeni deyil. Onlarda, ümumiyyətlə ədalət deyilən şey yoxdur.

***- Abutalib müəllim, fikirlər var ki, ATƏT-in Minsk qrupu dövlətlərindən Azərbaycana qarşı baş verən təsir və təzyiqlər Türkiyə-Azərbaycan Alyansnın qurulmasına qarşı yönəlib. Bu barədə nə düşünürsünüz?***

- Üçtərəfli bəyanat imzalanandan sonra, oradakı bəndlərin heç birinə münasibət bildirilmədi. ABŞ da, Fransa da rəsmi bəyanat yayaraq qəti şəkildə bildirdilər ki, Türkiyənin bu məsələdə iştirakı onları narazı salır. Türkiyəni qəbul eləmirlər. Təbiidir ki, Türkiyənin regiona girməsi, bu qədər çəkiyə malik olması, Azərbaycan-Türkiyə əlaqələrinin bir az da möhkəmlənməsi, eləcə də Türkiyə-Rusiya yaxınlaşması da onları çox narahat edir. Qərbin marağı odur ki, Azərbaycanda güclü, sabit ölkənin yaranmasına imkan verməsin. Regionda mümkün qədər münaqişə ocağı qalsın ki, hər dəfə Azərbaycana təsir eləmək imkanları olsun. Ona görə də əvvəl istəyirdilər ki, Dağlıq Qarabağın müstəqilliyi təmin olunsun. Deyirdilər ki, referendum keçirilsin və orada yaşayan ermənilər öz iradələrini təyin elsinlər. İndi də bəhanələr axtarırlar. Azərbaycanın ərazi bütövlüyünə qarşı gələ bilməyəcəklərini anlayırlar.

Prezident də müsahibələrində dedi ki, reallıqlarla hesablaşın. Ona görə Deyton modelini işə salırlar ki, bəlkə bizə təklif etdikləri variantı qaytara bilsinlər. Dediyim odur ki, bu cəhdlər dayanmayıb. Bu prosesdə Azərbaycan Prezidenti qəti mövqeyini bildirib. Onun bu mövqeyi göstərir ki, məsələlər bizim düşündüyümüz qədər də çətin deyil. Prezident bu sahədə ən məlumatlı insandır. Dəfələrlə bəyan edib ki, status yoxdur, olmayacaq. ABŞ, Fransa bu status məsələsindən danışıb, Rusiya bu məsələnin bir neçə ildən sonra müzakirə olunmasını mümkün saysa da, cənab Prezident deyibsə ki, status yoxdur, demək, statusdan söz gedə bilməz və tədricən Azərbaycanın suverenliyinə addım-addım nail olunacaq. Ən əsası da Rusiya sülhməramlıları 5 ildən artıq Azərbaycanda qalmamalıdırlar. Əgər mümkün olsa, bu prosesdə Qərbin dəstəyinə çox böyük ehtiyac var.

***- Ermənilərin Qarabağa köçürülməsində iştirak edən Rusiya Azərbaycan əhalisinin öz yurduna köçürülməsi barədə düşünmür. Üstəlik, ermənilərin Azərbaycanda yerləşməsi üçün bütün dəstəyini verir. Bu proses Azərbaycan üçün nə qədər təhlükəlidir?***

- Bu gün dünya miqyasında Azərbaycanın mövqeyi dəyişib. Azərbaycan kifayət qədər möhkəmdir, onun çox dəyərli müttəfiqləri var. Azərbaycanın Prezidenti dünyanın çox böyük təşkilatlarının tədbirlərinə sədrlik edir. Rusların tez-tələsik 50 min ermənini Qarabağa köçürməsi təbiidir ki, bizi narahat elədi. Azərbaycan güclü dövlət olduğuna görə bunun bizim üçün müsbət tərəfləri də var. Ermənilərin imkanı olsaydı bu köçürülməni bir müddət ləngidib, səs-küy yaratmaqdan ötrü istifadə edərdilər. Bütün dünyanı Azərbaycana qarşı qaldırardılar ki, onlara qarşı etnik təmizləmə olub. Gəlib oturublar orada, başqa bəhanələri yoxdur. Biz də deyirik ki, ağlınızı başınıza yığın, yaşayın ki, sizin üçün də bir şərait yaradaq. Təbiidir ki, biz eyni zamanda narahatıq.

***- Qarabağa köçürülən ermənilərə Ermənistan pasportu verildiyinə dair məlumatlar var. Bu barədə nə deyərdiniz?***

- Bu aqoniya vəziyyətində olan Ermənistanın təxribatçı addımlarıdır. Gah rus dilini dövlət dili elan edirlər, gah separatçı rejimin 33-cü ilini qeyd edirlər. Bunların heç bir mənası yoxdur, oradakı ermənilər gücünü tirmiş adamlardır. Nəinki Qarabağdakı ermənilər, Ermənistanın özü də gücünü itirmiş vəziyyətdədir. Ermənistan elə rəzil vəziyyətə düşüb ki, ondan çıxmaq şansı yoxdur. Heç kəs Ermənistanın problemini həll eləmək üçün özünə əziyyət vermək istəmir. Müəyyən qədər dəstək verirlər, ancaq o buna kifayət eləmir. Məqsədləri Azərbaycan cəmiyyətini narahat eləməkdir. Bunlar haqqında tədbirlər görülməlidir, vaxtında qarşısı alınmalıdır.

***- Minalanmış ərazilərimizin xəritələri niyə verilmir və nəyə görə Azərbaycana qarşı qətnamələr çıxarmağı sevən güclər buna bir reaksiya vermir. Niyə sülhməramlılar bunu tələb etmir?***

- Erməni xisləti, mənəviyyatsızlığı budur. Nə ləyaqətlə müharibə etməyi bacarır, nə də ləyaqətlə sülh şəraitində yaşaya bilir. Xəritələr verilməlidir və çox güman ki, bunu ruslar da tələb edirlər. Yəqin ki, bəhanə edirlər ki, yoxdur. Azərbaycanlıların niyə öz evlərinə qaytarılmaması məsələsi tez-tez deyilir. Ermənilər qeyri-insanı şəraitdə yaşamağa adət ediblər. Xalqımız bu 28-30 ildə çəkdiyini çəkib. O yerlər tam təhlükəsiz olana qədər bizim həmvətənlərimiz ora qayıtmamalıdır. Respublika üzrə ən yaxşı həyat şəraiti azad olunmuş ərazilərdə olmalıdır. Bu o regiondan olan insanlarımızın vətəndaşlarımızın haqqıdır. İş yerləri açılmalı, əmək haqqı, şərait yaxşı olmalıdır. Elə edilməlidir ki, respublikanın başqa regionlarından da ora axın olsun. Reallıq budur ki, minalanmış ərazilərin xəritələri verilmir, insanlar isə qayıtmalıdır. Bilirik ki, hazırda minaların təmizlənməsinə müəyyən xarici dövlətlərin şirkətləri cəlb olunub. Bu, uzunsürən prosesdir. Prezident də dedi ki, ilk qrup əhalini ilin sonuna qədər köçürə bilərik. İnşAllah, bu proseslər başlayandan sonra hamı yavaş-yavaş öz evinə qayıdacaq.

***- Qarabağda baş verən bu hadisələrdən stimul alaraq ölkə daxilində təxribatlar yaratmağa çalışanlar varmı və sifarişləri haradan alırlar?***

- Çox təəssüf ki, bir qrup insan sifarişlə hərəkət edib ölkədə narazılıq yaratmağa çalışdı. Siz müharibələr ərəfəsində Milli Şuranın çıxışlarına diqqət yetirin. Milli Şura Türkiyə hərbi bazasının Azərbaycanda yerləşdirilməsinə etiraz elədi. Bəyanatlar verdilər ki, danışıqlar Avropa Birliyi çərçivəsinə keçirilməlidir. İstəyirlər ki, ATƏT-in Minsk qrupu 30 il başımızı necə qatdısa, bir 30 il də Avropa başımızı qatsın. Ən təhlükəlisi də o idi ki, bəyanat verərək müharibənin əleyhinə olduqlarını dedilər. Bilirik ki, hərbi əməliyyat olmadan biz vəziyyəti qətiyyən dəyişdirə bilməzdik. Heç bir şansımız da yox idi. Yəni bu üç bəyanat cəmiyyətin diqqətindən kənarda qaldı. Bu üç məsələ, xüsusillə Milli Şura Azərbaycanda ən xırda bəhanələrdən istifadə eləyib sabitliyi pozmağa çalışdı. Mən bunu konkret olaraq onların bəyanatlarına əsasən deyirəm.

Bir də ikinci qrup insanlar da var - populistlər. Açıq söyləyək, adi insanın bu məsələləri araşdırıb öyrənməyə imkanları yoxdur. Yəni hadisələri təhlil eləsin, başqa ölkələrin başına gələnləri görsün müqayisə eləsin və sair. Bu məqamdan istifadə edənlər çalışırlar ki, həmin insanlar da onların dediyini təkrar etsinlər. Bir məqam da var: partiyalar qəti mövqe ortaya qoymaqdan çəkinirlər. Mən bəyanat verdim ki, indiki zamanda sülhməramlıların gəlməsi daha məqbuldur, məni 5-ci kolon elan etdilər. Halbuki bütün fəaliyyətim Rusiya əleyhinə olub. Partiyalar, siyasilər məsuliyyətli olmalıdır, dövlətin yükü həm də onların çiynindədir.

✍ *Tahirə Qafarlı*

## Proqnoz



**ABŞ-ın Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyası (EIA) "Brent" markalı neftin qiyməti üzrə proqnozunu kəskin artırıb. EIA-in aylıq hesabatına əsasən, 2021-ci ildə sözügedən markalı neftin ortalama qiymətinin 60,67 dollar səviyyəsində olacağı gözlənilir, bu, əvvəlki proqnozla müqayisədə 7,47 dollar çoxdur.**

Məlumata görə, 2022-ci ildə bu göstəricinin 58,51 dollar səviyyəsində olacağı gözlənilir 3,32 dollarlıq artım). EIA-in hesablamalarına görə, ötən il "Brent" markalı neftin bir barelinin orta qiyməti 41,69 dollar olub. Hesabata görə, WTI markalı neftin ötən il orta 2021-ci ildə isə 57,24 dollar (ötən proqnoza əsasən 50,21 dollar) səviyyəsində olacağını proqnozlaşdırır. 2022-ci ildə isə bu göstəricinin 54,75 dollara çatacağı gözlənilir (öncəki proqnoz 51,56 dollar səviyyəsində olub). Hesabatda, həmçinin qeyd olunur ki, ötən il WTI markalı neftin orta qiyməti 39,17 dollar olub. EIA Azərbaycanda 2021-2022-ci illər üçün gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı üzrə proqnozunu yüksəldib.

Bu il Azərbaycanda gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı 770 min barel təşkil edəcək ki, bu da əvvəlki proqnozdan 40 min barel çoxdur. Qurumun proqnozuna görə, 2022-ci ildə ölkədə gündəlik neft hasilatı artacaq və 820 min barel təşkil edəcək. Bu, fevralda verilən proqnozla müqayisədə 40 min barel çoxdur. EIA-in göstəricilərinə əsasən, ötən il Azərbaycanda orta gündəlik neft və digər maye karbohidrogenlər hasilatı 710 min barel səviyyəsində olub.

## BİR CÜMLƏ - BİR XƏBƏR

■ Belçika polisi narkotik mafiyasına qarşı krallıq tarixində ən böyük əməliyyatlardan birini keçirib, 1500 polis əməkdaşının cəlb edildiyi əməliyyat zamanı 17 tondan çox kokain ələ keçirilib, 48 nəfər saxlanılıb.

---

■ RSFSR-in Xalq artisti, teatr və kino aktyoru İosif Konopaskiy vəfat edib, 1925-ci ildə anadan olmuş İ.Konopask ömrünün 60 ilini teatr və kino sahəsinə həsr edib. O, "713 eniş etmək istəyir", "Çukotkanın rəisi", "Üsyan zastavası", "İnqilabla doğulmuş" kimi filmlərdəki rolları ilə yaddaşlarda qalıb.

---

■ Bir müddət əvvəl peyvənd olunan Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn koronavirusa yoluxub, o, hazırda ev şəraitində virus əleyhinə müalicə olunur.

---

■ Azərbaycanın Xalq rəssamı Mirnadir Zeynalov vəfat edib, bu barədə APA-ya Azərbaycan Rəssamlar İttifaqının (ARİ) sədri, Xalq rəssamı Fərhad Xəlilov məlumat verib, o, M.Zeynalovun uzun müddət xəstə olduğunu, bu gün səhər vəfat etdiyini bildirib.

---

■ Martın 9-da Azərbaycan Respublikasında yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 21,204 nəfər vaksinasiya olunub, hazırkı dövrədək ölkəmizdə koronavirus infeksiyasına qarşı 428,635 nəfər peyvəndlənmə prosesində iştirak edib.

---

■ Rusiyanın müdafiə naziri ordu generalı Sergey Şoyqu və onun erməni həmkarı Vaqarşak Arutyunyan arasında telefon danışığı baş tutub, müdafiə nazirləri Dağlıq Qarabağda Rusiya sülhməramlı qüvvələrinin vəzifələrinin icrası ilə bağlı mövcud vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər barəsində də fikir mübadiləsi aparıblar.

---

■ Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putin yaxın vaxtlarda görüşəcəklər, bu barədə Türkiyə və Rusiya dövlət başçıları Mersin vilayətində "Akkuyu" Atom Elektrik Stansiyasının (AES) 3-cü blokunun təməlqoyma mərasimi zamanı görüşü razılaşdırıblar.

---

■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 515 yeni yoluxma faktı qeydə alınıb, 201 nəfər müalicə olunaraq sağalıb, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

---

■ Bu ilin yanvar-fevral ayında Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə dövlət büdcəsinə 593 403,7 min manat həcmində vergi və rüsumlar daxil olub ki, bu da 2020-ci ilin eyni ayları ilə müqayisədə 10,5% azdır.

---

■ ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin xarici işlər naziri Ann Linde Azərbaycana gələcək, bu barədə o, öz tvitter hesabında məlumat paylaşıb.

---

■ Braziliyanın "Marakana" stadionunun adı dəyişdirilir, arenaya "futbol kralı" Pelenin adı verilir.

---

■ Bakıda daha bir intihar hadisəsi baş verib, martın 9-u, günorta saatlarında Yasamal rayonun "Sovetski" adlanan hissəsində yaşayan 1976-cı il təvəllüdlü Kəmalə Həsənova özünü öldürüb.

---

Gəncə şəhərində iki məktəb koronavirus səbəbindən distant tədrisə keçib, bu barədə Gəncə Şəhər Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr üzrə məsul şəxsi Raminə Məmmədova bildirib.

Müsahib

**Son günlər müxtəlif ölkələrdən, müxtəlif gücdə zəlzələ xəbərləri gəlməkdədir. Məsələn, bu ilin martın 4-də Yeni Zelandiya sahillərində 7,3 bal gücündə zəlzələ qeydə alınıb. Həmin tarixdə Kermadec arxipelaqı sahillərində - Sakit okeanda 8.0 bal gücündə zəlzələ olub. Martın 4-də Yunanıstanda baş verən 6 bal gücündə zəlzələ nəticəsində isə çoxlu sayda insan yaşayış yerini itirib. Evləri dağılmış insanlar hələ də çadırlarda gecələmək məcburiyyətində qalıblar. Bəs görəsən, Azərbaycanda seysmoloji vəziyyət necədir? Respublika ərazisində güclü zəlzələ ehtimalı varmı? Bu və digər suallar ətrafında "Həftə içi" qəzetinin müsahibi Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişlidir.**



**Qurban Yetirmişli,**
Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru

# Binaların zəlzələyə davamlılığına FHN nəzarət edir

***- Qurban müəllim, hazırda Azərbaycanda seysmoloji vəziyyəti necə qiymətləndirirsiniz?***

- Hazırda Azərbaycan ərazisində seysmiklik normal, fon səviyyəsindədir.

***- Ötən il Azərbaycanda nə qədər zəlzələ qeydə alınıb? Ümumiyyətlə, gün ərzində ölkə ərazisində təxminən nə qədər zəlzələ qeydə alınır?***

- 2020-ci ildə respublika ərazisində 4030 yeraltı təkan qeydə alınmışdır. Gün ərzində 45 yeraltı təkan, bunladan 25-i ölkə ərazisində qeydə alınır.

***- Ötən illərlə müqayisə etsəniz, Azərbaycanda qeydə alınan zəlzələ sayında artım varmı?***

- 2020-ci illə müqayisədə Azərbaycanda qeydə alınan zəl-zələlərin sayında artım yoxdur.

***- Azərbaycanda seysmik cəhətdən ən aktiv zonalar hansılardır? Hazırda həmin ərazilərdə vəziyyət necədir?***

- Azərbaycanda seysmik cəhətdən aktivliyi ilə seçilən zonalar çoxdur. Onlardan Şamaxı-İsmayıllı, Talış dağlıq zonası, Xəzərin şimal və mərkəzi hissələri, Zaqatala-Balakən, Gəncə, Kəlbəcər zonalarını və bir sıra digər aktiv bölgələri göstərmək olar.

***- Paytaxtın seysmik qiymətləndirilməsi sonuncu dəfə nə vaxt aparılıb?***

- Bakı şəhəri kifayət qədər yüksək seysmik təhlükə səviyyəsi ilə - MSK-64 şkalası üzrə 8 balla səciyyələnir. Bu fonda şəhərin ayrı - ayrı sahələrində daha yüksək - 9 bal seysmik təhlükəli sahələr də ayrılır. Seysmik təhlükənin qiymətləndirilməsində geoloji - tektonik amillərlə yanaşı, sahələrdəki mühəndis-geoloji, hidrogeoloji və başqa yerli qruntları səciyyələndirən bir sıra parametrlər mühüm əhəmiyyət kəsb edir. Bir neçə il əvvələ qədər Bakıda aparılan tikinti sahələrindəki seysmikliyi dəqiqləşdirmək məqsədilə tikinti şirkətlərinin bizim Seysmoloji Mərkəzə təqdim etdiyi həmin parametrlər tikinti sahələrində seysmik təhlükəni dəqiq qiymətləndirməyə imkan verirdi. Lakin son bir-iki ildə bizə tikinti sahələrindəki seysmikliyi dəqiqləşdirmək məqsədilə müraciətlər olmadığından Bakı şəhəri ərazisində yeni sahələrdə seysmikliyin qiymətləndirilməsi işləri aparılmır.

***- Bəs, hazırda bu istiqamətdə hansı işləri görürsünüz?***

- Hazırda 2000-2017-ci illərdə Abşeron yarımadası, xüsusən də Bakı şəhərində tikinti aparılmış yüzlərlə sahələrdə seysmikliyi dəqiqləşdirməsi məqsədilə bizə təqdim edilmiş zəruri məlumatlar əsasında paytaxtın seymikliyinin yeni dən analizi və mümkün qanunauyğunluqların müəyyənləşdirilməsi üzrə tədqiqatlar davam etdirilir.

***- Sizin mərkəz tərəfindən təkcə yeni tikilmiş binaların deyil, bu vaxtadək tikilmis binaların zəlzələyə dözümlülüyünün monitorinqi aparılırmı?***

- Əvvəllər inşa olunmuş binaların monitorinqi və onların seysmik dayanıqlılığının qiymətləndirilməsi bizim səlahiyyətlərimizə aid deyildi və biz belə işlər aparmırıq.

***- İstər Bakıda, istərsə də respublikanın digər ərazilərində binalar tikilməmişdən əvvəl ərazilərin seysmik aktivliyi müəyyən edilir. Yeni tikilən binaların zəlzələyə davamlılığı barədə nə deyə bilərsiniz?***

- Biz yeni tikilən binaların yerləşdiyi sahələrdə seysmikliyin qiymətləndirilməsi işləri aparırdıq.

> *Hazırda respublika ərazisində 35-i daimi olmaqla 62 seysmik stansiya fəaliyyət göstərir*

Lakin hazırda bu işlər aparılmır. Həmin binaların tikintisinə və zəlzələyə davamlılığına FHN tərəfindən nəzarət edilir.

***- Səhv etmirəmsə, bir neçə il bundan əvvəl Almaniyanın Yer Elmləri Araşdırma Mərkəzi ilə birlikdə bu istiqamətdə monitorinqlər aparmalı idiniz. Həmin monitorinq aparıldımı? Binaların zəlzələyə dözümlülüyü barədə rəyiniz nədən ibarət oldu?***

- Bəli, belə bir təşəbbüs var idi və biz bununla bağlı müəyyən müzakirələr də aparmışdıq. Amma maliyyə problemlərinə görə bu məsələ açıq qaldı.

***- Bu gün Azərbaycanda nə qədər seysmoloji stansiya var və mövcud stansiyalar baş verən prosesləri tam şəkildə izləməyə imkan verirmi?***

- Hazırda respublika ərazisində 35-i daimi olmaqla 62 seysmik stansiya fəaliyyət göstərir. Daha 22 seysmik stansiyanın quraşdırılması nəzərdə tutulub və həmin stansiyalar quaşdırıldıqdan sonra stansiyalarımızın sayı 84-ə çatacaq. Bu da bizim tədqiqatlarımızın keyfiyyətini daha da artıracaq. Gələcəkdə seysmik monitorinq şəbəkəsinin daha da genişləndirilməsi də ola bilər. Lakin bu hələ gələcəyin işidir.

***- Azərbaycanda güclü zəlzələ ehtimalı gözlənilirmi?***

- Azərbaycan ərazisi seysmik cəhətdən aktiv olan bölgədir. Burada keçmişdə dəfələrlə dağıdıcı və güclü zəlzələlər baş vermişdir. Son illərdə ortagüclü, bir sıra dağıntılara səbəb olan zəlzələlər də qeydə alınır. Belə zəlzələlərə 2012-ci ildə Zaqatala - Balakən, 2019-cu ildə Şamaxı-İsmayıllı bölgələrində çoxsaylı evlərin çatlaması, zədələnməsi və dağılmasına səbəb olan zəlzələləri misal göstərmək olar. Seysmologiya elmində məlum qanunauyğunluqlar deməyə əsas verir ki, nə zamansa Azərbaycanda gələcəkdə güclü zəlzələ ola bilər.

Bu isə onu göstərir ki, Azərbaycanda seysmoloji tədqiqatların aparılması və alınan nəticələrin bina və qurğuların inşasında, seysmik riskin qiymətləndirilməsində və s. zəruri sahələrdə nəzərə alınması vacibdir. Əks təqdirdə, gələcəkdə daha böyük problemlərlə üz-üzə qala bilərik.

***- Müasir seysmologiya zəlzələni nə dərəcədə dəqiq və tez ölçə bilir?***

- Zəlzələ ilə bağlı məlumatlar müasir emal proqramları vasitəsilə emal olunur. Bundan sonra ictimaiyyətə məlumat verilir. Biz ən müasir cihaz və avadanlıqlardan istifdə edirik. Demək olar ki, bu sahədə dünyanın aparıcı ölkələri ilə Azərbaycan eyni səviyyədədir. Bunu Bakıya səfərləri zamanı xarici qonaqlar özləri də deyirlər.

MDB məkanında isə bizim şəbəkə liderdir və təbii ki, bütün bunlar mərhum Ulu Öndərimizin və möhtərəm cənab Prezdentimizin bu sahəyə davamlı dəstək və qayğısı sayəsində mümkün olmuşdur. Çalışırıq ki, məlumatlar maksimum dərəcədə operativ olaraq insanlarımıza çatdırılsın. Lakin yenə də bildirmək istəyirəm ki, zəlzələni əvvəlcədən dəqiq proqnozlaşdırmaq qeyri-mümkündür.

***- Bəs, bugünkü texnologiyalar zəlzələnin baş verəcəyi ilə bağlı dəqiq proqnoz yürütməyə nə dərəcədə imkan verir?***

- Zəlzələnin başvermə vaxtının proqnozu yaxın illərin işi deyildir. Dünyada yüzlərlə zəlzələ xəbərvericiləri istifadə olunsa da, bir nəticə əldə olunmamışdır. Müasir texnologiyalar seysmik təkanların yüksək dəqiqliklə qeydə alınmasına, seysmik dalğaların rəqəmsal metodlarla hərtərəfli analizinə və s. məsələlərin həllinə geniş imkanlar açır. Proqnoz isə tamam başqa problemdir və onun həlli üçün zəruri məlumatların özləri qeyri-müəyyəndir.

✍ **Sevinc**



**Vüqar Tofiqli,**
"Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin sədri



***İyirmi ildən artıq bir zaman kəsiyində fəaliyyət göstərən ölkə bələdiyyələrinin irəliləyişləri ilə yanaşı, ciddi problemlərlə üz-üzə qalmaları təəssüf doğurur. Bu problemlərdən biri də bələdiyyələrə, xüsusən də Bakı bələdiyyələrinə mülkiyyətə əmlakın və torpağın verilməməsi və ərazilərin bələdiyyələrə tanıdılmaması, habelə cizgilərlə verilən bir çox ərazilərin isə reallıqla üst-üstə düşməməsidir. Ən əsası odur ki, hazırda vəziyyət elə gətirib ki, Bakı və ətraf qəsəbələrdə inzibati əraziləri ayrıd etmək mümkün deyil.***

# Bələdiyyələrin mülkiyyətlə bağlı problemləri

Ümumilikdə götürdükdə isə əmlak məsələləri üzrə Dövlət Xidmətinin və onun struktur bölmələrinin bələdiyyələrin yuxarıda söylənilən probleminin həllinə səy göstərməməsi və ya illərboyu ləngitməsi bələdiyyələr arasında narazılıqla qarşılanır desək, yəqin ki yanılmarıq.

Bu gün paytaxtda formalaşan 53 bələdiyyənin heç birinə mülkiyyətə nə əmlak, nə də torpaq verilib. Açığı, bu prosesin nə vaxt başlanacağı də məlum deyil. Torpağın bələdiyyələrə verilməsi üçün şəhərin kadastrı başa çatdırılmalı idi. İyirmi ildir ki, kadastr - yəni paytaxtın yeraltı və yerüstü kommunikasiya xətlərinin planı hələ də müəyyən edilməyib. Məhz bu səbəbdən bələdiyyələrə mülkiyyətin verilməsi ləngiyir. Bəs bu proses nə vaxt icra ediləcək? Maraqlıdır.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin və Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin ləğvi bələdiyyələrdə bu prosesin tezliklə başlanacağına ümidi artırsa da, irəliləyişin olmaması yerli orqanlarda çalışanların bu sahəyə qarşı olan incikliyini daha da artırır. Suraxanı, Sabunçu, Xəzər, Xətai, Binəqədi və Səbail rayonlarında formalaşan bələdiyyələrin əraziləri dəqiqləşdirilmədiyindən və ya mübahisəli olduğundan, vergilərin toplanılmasında da problem yaranır. Belə bir çətin, ancaq çətin olduğu qədər sadə görünən bir suala çox asanlıqla cavab tapmaq mümkündür. Əgər məmurlarda istək, maraq olarsa.

***

Fikrimcə, ilk olaraq Bakının inzibati ərazi-vahidləri məsələsinə yenidən baxılmalıdır. Çox maraqldır ki, qəsəbələrin yaşayış ərazisi Bakı şəhərinə, qəsəbəyə bitişik ətraf ərazilər isə Abşeron rayonuna baxır. Bu istiqamətdə problem var və ona aydınlıq gətirilməlidir. Qəsəbələr böyüyür, infrastruktur qurulur, yollar salınır, ancaq sakin onu sənədləşdirə bilmir. Ərazinin sahibi ya bilinmir, ya da torpaq təyinatı üzrə istifadə edilməyib.

Bələdiyyənin inkişafına maneə yaradan məmurların vaxtilə "göz yumması" nəticəsində böyüyən qəsəbələrdə kommunikasiya infrastrukturu yaradılır, sanki yeni şəhər salınır, lakin heç bir mənzilin qeydiyyatı aparılmır. Küçəsi, ünvanı bilinməyən, ancaq şəhərə çevrilən qəsəbələrdə formalaşan bələdiyyələr isə hər hansı bir vergi növü toplaya bilmir. Misal olaraq Binə qəsəbəsini göstərmək olar. Binə qəsəbəsində bu gün qeydi rəsmi 160 min nəfərə yaxın sakin yaşayır. Rəsmi qeydiyyatda olanların sayı isə 55 min nəfərdir. Qəsəbənin ərazisi bir tərəfdən Suraxanı, digər tərəfdən, Abşeron ərazisinə düşməkdədir. Təsəvvür edin ki, bu evlərin hər biri kənd təsərrüfatı təyinatlı torpaqlarda, ya da pay torpaqlarında inşa edilib. Prosesin icrasının ləngiməsində, sözsüz ki, dövlət büdcəsi də itirmiş olur. Bu gün təqribi hesablamalara görə, paytaxtda məhz bu cür problemli mənzillərin sayı 500 mini keçməkdədir. Bu qədər mənzilin 80 faizədək hissəsini isə rəsmiləşdirmək mümkündür. Sənədsiz mənzilin sənədləşdirilməsi həm dövlət, həm də yerli büdcəyə kifayət qədər vəsaitin daxil olmasına səbəb ola bilər. Bəs o zaman nəyi və kimi gözləyirik? Baxmayaraq ki, bununla bağlı dövlətin rəsmi mövqeyi ortadadır və son illərdə bir neçə ciddi sənəd imzalanıb. İcrasına da start verilib.

***

Bu cür yaranmış vəziyyətdə biz nəyi təklif edərdik. Təklif edərdik ki, Abşeron rayonu da daxil olmaqla, paytaxt rayonları inzibati ərazi vahid kimi ləğv edilsin və inzibati ərazi vahidləri yenidən təşkil edilsin. Sayı on iki deyil, cəmi beş rayon olmaqla yaradılsın. Yeni paytaxtın mərkəz rayonu olmaqla, dörd istiqamət üzrə - Cənub, Şimal, Qərb və Şərq dairələri təşkil edilsin. Belə bir məqamda faktiki olaraq mövcud olan qəsəbələrin bəzilərinin də ləğv edilərək ya mərkəz rayona, ya da qeyd edilən ərazilərə birləşdirilməsi həyata keçirilməlidir. Əslində, meriya strukturu da bu şəkildə formalaşdırılmalıdır. Sonra isə bu dairələrdə monitorinq aparılaraq, torpağın faktiki təyinatına uyğun təsnifatı müəyyən edilməlidir. Bu proses illərlə çəkməməli, tezliklə öz həllini tapmalıdır. Son olaraq İqtisadiyyat naziri hörmətli Mikayıl Cabbarovdan xahiş edərdim ki, digər ona həvalə edilən sahələrdə ciddi layihələr, struktur dəyişikliyi aparmaqla ölkə başçısı qarşısında götürdüyü öhdəlikləri layiqincə yerinə yetirdiyi kimi, Əmlak məsələləri üzrə Dövlət Xidmətinin fəaliyyətini ciddi nəzarətdə saxlamaqla, bu strukturda şəffaflığın təmin edilməsini real çəkildə həyata keçirilməsini nəzərdə saxlasın. Bununla yanaşı, bələdiyyələrin əmlakla bağlı, habelə müvafiq qurumlarla əlaqədar yaranmış süni problemlərin həllinə nail olunsun. Gəlin bir məqamı unutmayaq ki, bələdiyyələrin problemlərinin azalması, onların maliyyə vəsaitinin həcminin artması nəticə etibarilə sakinin, seçicinin probleminin azalması deməkdir.

***P.S. Biz qısa şəkildə bələdiyyələrə mülkiyyətin verilməməsi və bu istiqamətdə mövcud problemlərə toxunduq. Məsələlərin həllinə münasibəti isə müvafiq orqanlardan gözləyirik.***



**■ İşğaldan azad olunmuş ərazilərin ekoloji vəziyyətinin qiymətləndirilməsi məqsədilə Zəngilan rayonu ərazisindən keçən Oxçuçayda keçirilən növbəti monitorinq zamanı 500-dən çox farel və digər balıqların öldüyü aşkar edilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən hafta.az-a bildirilib ki, çaydan götürülmüş su nümunələrində mis, molibden, manqan, dəmir, sink, xrom və s. kimi ağır metalların miqdarının normadan dəfələrlə artıq olduğu müəyyən olunub. Monitorinq və analizlərin nəticələri, eyni zamanda çayda balıqların kütləvi məhv olması faktları çayın Ermənistan ərazisindəki Qacaran mis-molibden zavodu və Qafan mis filiz saflaşdırma kombinatının toksiki tullantıları ilə çirkləndirilməsini bir daha təsdiq edir.



**■ Azərbaycan üzrə 1436 bələdiyyədən (Naxçıvan Muxtar Respublikası istisna olmaqla) 1310 bələdiyyənin xəritəsi hazırlanıb. Bu, Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatda əksini tapıb.**

Sənəddə qeyd edilib ki, bunlardan 549 bələdiyyənin xəritəsi müvaviq olaraq rayon icra hakimiyyətləri və bələdiyyələrlə razılaşdırılıb və Milli Məclisə təqdim olunmaq üsün Prezident Administrasiyasına təhvil verilib. Həmçinin 31 bələdiyyənin xəritəsi Prezident Administrasiyasına təhvil verilməsi üçün hazırlanma, 730 bələdiyyənin xəritəsi isü müvafiq rayon (şəhər) icra hakimiyyətləri və bələdiyyələrlə razılaşdırma mərhələsindədir. 126 bələdiyyənin xəritəsinin hazırlanması üzrə işlər davam edir.



**■ İranın vitse-prezidenti və Ətraf Mühitin Mühafizəsi Təşkilatının sədri İsa Kələntəri İran İslam Respublikasının banisi Ayətulla Ruhulla Xomeyniyə hörmətsizlik etmək ittihamı ilə 4 aylıq həbs edilib.**

Bu barədə İslam İnqilabı Məhkəməsinin 26-cı şöbəsi qərar verib. Qərara əsasən, İranın vitse-prezidenti 2 il müddətinə siyasi partiyalara üzv ola bilməz, həmçinin ictimai təşviş məqsədilə şayiələr yaydığına görə 40 milyon rial (təxminən, 952 dollar) cərimə ödəməlidir. Sözügedən qərarla bağlı İranın Ətraf Mühitin Mühafizəsi Təşkilatının sədr müavini Əşğər Daneşian bildirib ki, İranın vitse-prezidentinin həbsi ilə əlaqədar verilən qərar qəti deyil. Bununla əlaqədar apelyasiya məhkəməsinə şikayət olunacaq.



**■ Türk şirkətləri Xəzər dənizindəki neft və qaz yataqlarının işlənilməsində əməkdaşlıq etməyə hazırdır. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.**

Bu yaxınlarda Türkmənistanla Azərbaycan arasında Xəzər dənizindəki "Dostluq" yatağının birgə işlənməsi ilə bağlı razılaşmanı yüksək qiymətləndirən nazir Türkiyə şirkətlərinin də bu istiqamətdə əməkdaşlıq niyyətini tərəfə çatdırdıqlarını deyib: "Buradan hasil olunacaq qaz və neftin hazırda fəaliyyətdə olan boru xətləri ilə Türkiyəyə çatdırılması da nəzərdə tutulur. Hər mənada əməkdaşlıq imkanı var".



**■ "Cənub Qaz Dəhlizi" çoxguşəli, çoxtərəfli enerji layihəsidir. Bunu Trend-ə ABŞ Dövlət Departamentindən deyiblər.**

Qeyd olunub ki, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 7-ci iclasında təmsil olunmuş bütün ölkələr, eləcə də layihədə iştirak edən bir çox şirkətlər bunun icrasında vacib rol oynayıblar:

"Biz "Cənub Qaz Dəhlizi"nin təsirini çox dəqiq görürük. Məsələn, Türkiyə daha çox Azərbaycan qazı almağa başlayıb. İtaliyada, Yunanıstanda və Bolqarıstanda istehlakçılar da bu qış ilk dəfə Azərbaycanın tədarük etdiyi Xəzər qazından faydalanırlar".




**■ Dövlət İmtahan Mərkəzində respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 5-11-ci sinif "Russkiy əzık", "Literatura" və "Fizika" dərsliklərinin elmi-metodiki monitorinqi aparılıb.**

Mərkəzdən hafta.az-a verilən məlumata görə, fənlər üzrə işçi qrupları tərəfindən dərsliklər məzmun, dil və yazı üslubu, dizayn və bədii tərtibat, tapşırıqların məzmuna uyğunluğu baxımından müzakirə edilib. Müzakirələr nəticəsində dərsliklərlə bağlı qeyd və təkliflər bildirilib. Fənlər üzrə işçi qrupları tərəfindən dərsliklərdəki mübahisəli məqamlar, üst-üstə düşməyən faktlar, səhvlər və uyğunsuzluqlar barədə tövsiyələrin hazırlanması, onların test bankının təkmilləşdirilməsində və yeni tapşırıqların tərtibində nəzərə alınması haqqında qərar qəbul edilib.

## Sosial

# Başörtüyü ilə bağlı “Pasportlar haqqında” qanuna dəyişiklik təklifi

***Bu** günlərdə Ombudsman tərəfindən “Ombudsman Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın bir çox bəndlərinin icra müddətinin başa çatdığını nəzərə alaraq, müasir dövrün tələblərinə uyğun yeni strateji sənəd qəbul olunmasını təklif edilib. Eyni zamanda “Azərbaycan Respublikasının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının qanununda şəxsiyyət vəsiqəsinin üzərində Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələblərinə uyğun fotoşəklin yerləşdirilməsinin nəzərdə tutulmasına baxmayaraq, həmin tələblərə aydınlıq gətirilmədiyi və bu halların şikayətlərə səbəb olduğu üçün fotoşəkillərin yolverilən nümunələrinin (baş örtüklərindən istifadə edilməsi və s.) əks etdirilməsi ilə bağlı müvafiq qanuna, habelə “Pasportlar haqqında” qanuna əlavə və dəyişiklərin edilməsi təklif olunub.*

Hazırda ölkəmizdə hicablı qadınların şəxsiyyəti təsdiq edən sənədə şəkil çəkdirərkən başörtüyünün açılmasını tələb kimi göstərən qanun olmasa da, rəsmi qurumlar tərəfindən buna icazə verilmir. Bəs görəsən, qanunda göstərilmədiyi halda, vətəndaşdan başörtüsü olmadan şəkil çəkdirmə tələbi niyə var? Belə halların yaşanması qanunvericilikdə yaranmış boşluqdan irəli gəlir, yoxsa icraedici orqanlardan?

Hafta.az-ın əməkdaşı mövzuya fərqli baxış bucaqlarından yanaşaraq, mütəxəssislərin təklif və iradlarını dinlədi.

**■ Hüquq müdafiəçisi Rəsul Cəfərov bildirdi ki, bu baxımdan müxtəlif ölkələrin özünəməxsus təcrübəsi var. Bir qayda olaraq, şəxsiyyəti müəyyən edən sənəddə xanımların başörtüsünün olması ilə bağlı qadağa olmur:** “Əksinə, bu hüquq və azadlıqlardan biri hesab edilir ki, insan şəxsiyyət vəsiqəsi üçün nəzərdə tutulan fotonun hansı formada olmasını sərbəst şəkildə özü müəyyən edir. Bəzi ölkələr var ki, burada müəyyən məhdudiyyətlər mövcuddur. Çin və Hindistan belə ölkələrdən biridir. Əksər dövlətlərdə, hətta Avropada - Fransa və İsveçrədə, ictimai yerlərdə üzün bağlanmasına qadağa var. Burada söhbət ictimai yerdə üzün tamamilə örtülməsindən gedir. Xarici ölkələrdə başörtüsünə ciddi bir məhdudiyyət yoxdur. Əsas tələb ondan ibarətdir ki, şəxsin üz cizgiləri və gözləri görünsün”.



**Rəsul Cəfərov,**
Hüquq müdafiəçisi

Ekspertin sözlərinə görə, heç bir qanun vətəndaşın qarşısına şəxsiyyət vəsiqəsi üçün fotonun mütləq hicabsız olmalıdır kimi tələbini qoymur. Bizdə isə təəssüflər olsun ki, qanunla qadağa olmasa da, praktikada müəyyən məhdudiyyətlər var: “Burada təhlükəsizlik və azadlıq mövzularının toqquşması məsələsi var. Uzun illər həmin məsələ həm ölkəmizdə, həm də xaricdə debatlara səbəb olub. Çalışmaq lazımdır ki, bu iki ziddiyyət arasında balans tapılsın.

Fikrimcə, şəxsiyyət vəsiqəsində hicaba icazənin verilməməsində təhlükəsizliyin səbəb gətirilməsi zəif arqumentdir. Onsuz da başörtüyü olan xanımın siması, gözləri və üz cizgiləri tam şəkildə görünür. Hesab edirəm ki, bu praktika mərhələli şəkildə aradan götürülməlidir. Aydındır ki, dövlət dindən ayrıdır, bu, dünyəvilik prinsipidir. Özüm də fərd olaraq həmin prinsipi dəstəkləyirəm. Amma şəxsiyyəti müəyyən edən sənəddə hicablı xanımın öz istəyinə uyğun olaraq foto çəkdirməsi dinin dövlətə gətirilməsi anlamına gəlmir”.




**■ Müzakirəmizi deputat Erkin Qədirlinin fikirləri ilə davam etdiririk. Deputat söyləyir ki, o hələ doxsanıncı illərdən bu günə hicablı qadınların şəxsiyyət vəsiqəsinə şəkil çəkdirməsi məsələsində eyni mövqedədir:** “Forumlarda da, müsahibələrimdə də dəfələrlə demişəm ki, şəxsiyyət vəsiqələrində və pasportlarda qadınların hicabla şəkil çəkdirməsinin qadağası yanlışdır. Qanunda birbaşa elə bir göstəriş yoxdur. Sadəcə olaraq, əsasnamədə belə bir qayda var ki, “Şəxsiyyət vəsiqəsinə şəkil çəkdirərək görüntü təsvir olunur”. Orada “Papaqsız, gündəlik görünüşə xas olan tərzdə” şəklində ifadə öz əksini tapır. Yadımdadır ki, elə həmin vaxtlar qadağa ilə üzləşmiş bir qrup hicablı qadın məhkəməyə şikayət vermişdi. Rayon məhkəməsinin qərarı qadınların xeyirinə olmuşdu. Qərarda deyilirdi ki, başörtüsü ilə foto çəkdirmək qadınların hüququdur. Burada təkcə təfsir uğursuz idi. Yazmışdılar ki, “papaqsız” sözü hərfi mənada başa düşülməlidir. Hicab isə papaq deyil. Ona görə də bu qadağa onlara şamil olunmur”.

*“Burada təhlükəsizlik və azadlıq mövzularının toqquşması məsələsi var*

*“Qanunda şəxsiyyəti təsdiq edən sənəddə hicablı foto çəkdirməyə qadağa göstərilməyib*

*“Sənədi qəbul edən məmur və yaxud kənar şəxsin xanımı hicabsız şəkildə görməsi doğru deyil*

Əslində, qanunvericilikdə papaq deyilərkən, tək kişilərin başörtüyü nəzərdə tutulmurdu. Həmin vaxt Daxili İşlər Nazirliyi bu qərarla razılaşmadı və Bakı Şəhər Məhkəməsinə şikayət etdi (o dövrdə Bakı Şəhər Məhkəməsi Apelyasiya Məhkəməsi rolunu oynayırdı) növbəti dəfə məhkəmə qadınların lehinə qərar qəbul etmişdi. Onun təfsiri isə daha uğurlu idi.

Yazılırdı ki, “Papaqsız sözü hərfi mənada başa düşülməməlidir. Bu bütün başörtüklərini əhatə edir”. Hicabla bağlı isə belə bir fikir öz əksini tapırdı: ““Gündəlik görünüşə xas olan tərzdə” ifadəsi inanclı, müsəlman qadınlarının hicabını da əhatə edir”. Onsuz da hicab niqab deyil, burada insanı tanımaq üçün hər şey - üz, gözlər, burun, ağız görünür. Daxili İşlər Nazirliyi bu qərarla razılaşmadı və Ali Məhkəməyə müraciət etdi. Ali Məhkəmə də nazirliyin xeyrinə qərar qəbul etdi. Mənim fikrimcə, həmin qərar yanlış, təfsiri də uğursuzdur”. E.Qədirli təəssüf hissi ilə vurğuladı ki, məsələ hələ o vaxtdan həllini tapmayıb. Ara-sıra işıqlandırılsa da, mövcud vəziyyətdə dəyişiklik yoxdur. Qanunda şəxsiyyəti təsdiq edən sənəddə hicablı foto çəkdirməyə qadağa göstərilməyib. Buna görə də əlavə qanun qəbul etməyə və dəyişikliyə ehtiyac görmürəm. Sadəcə olaraq, tətbiq təcrübəsini düzəltmək lazımdır.



**Erkin Qədirli,**
Milli Məclisin deputatı

**■ Sonda isə məsələyə bir də islami baxımdan nəzər yetirək dedik... Bu səpkidə isə suallarımıza Heydər məscidinin axundu Hacı Rüfət Qarayev aydınlıq gətirdi. Din xadimi bildirdi ki, şəxsiyyəti təsdiq edən sənəddə hicablı qadının başörtüyünün açılması tələbi islami baxımdan doğru deyil:** “Qurani-Kərimdə qadınların başörtüsü ilə bağlı ayə var. Belə ki, onların başörtüsü sinələrinin üzərinə qədər düşməlidir. Görünə biləcək yerlər isə sifət, əllər və topuqdan aşağı ayaqlardır. Qalan yerləri öz məhrəmindən - həyat yoldaşı, qardaşı, valideynlər və qayınatadan başqa digərlərinin görməsi haramdır. Sənədi qəbul edən məmur və yaxud kənar şəxsin xanımı hicabsız şəkildə görməsi doğru deyil. Bu dinimiz baxımdan doğru sayılmır”. Qeyd edək ki, ”Pasportlar haqqında” AR Qanunun 8-ci maddəsinə müvafiq olaraq fotoşəkil Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələblərinə uyğun olmalıdır. Sözügedən tələb Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) 9303 nömrəli sənədi ilə müəyyən edilib. Həmin sənədə əsasən fotoşəkil çəkilərkən üzün cizgiləri açıq vəziyyətdə olmalı və baş geyimlərindən, pariklərdən və digər vasitələrdən istifadəyə yol verilmir. Eyni zamanda sözügedən beynəlxalq sənəddə dini azadlıq baxımından və dini inanclar üzrə, habelə tibbi və digər mədəni tələblər baxımından baş geyimləri ilə fotoşəkil çəkilməsi halları dövlətin səlahiyyətinə buraxılıb.



**Hacı Rüfət Qarayev,**
Heydər məscidinin axundu

Ölkəmizdə isə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 7 fevral tarixli 577 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin təsviri” 85,6 mm x 54 mm ölçülüdür. Vəsiqənin üz tərəfinin sol hissəsində vəsiqə sahibinin 26 mm x 32 mm ölçüdə fotoşəkli üçün yer nəzərdə tutulmuşdur. Fotoşəkil Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO-nun) 9303 nömrəli sənədinin tələblərinə uyğun olmalıdır. Bu fərmanın 3.3-cü maddəsinin yeni redaksiyasında qeyd olunub ki, şəxsiyyət vəsiqəsinin üzərində vətəndaşın Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) tələblərinə uyğun fotoşəkli yerləşdirilir. Azərbaycan Prezidentinin imzaladığı 7 fevral tarixli fərmanla təsdiqlənən “Azərbaycan Respublikasının vətəndaşının şəxsiyyət vəsiqəsinin təsviri” adlı əlavə 1-də kriteriya daha dəqiq göstərilib. Orada qeyd edilib ki, şəxsiyyət vəsiqəsinin üzərindəki fotoşəkil İCAO-nun 9303 saylı sənədinin tələblərinə uyğun olmalıdır.

✍ **Banu**



## Qazilərin mühərrikli təkərli oturacaqla təminatına başlanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial dəstək tədbirləri çərçivəsində Vətən müharibəsi qazilərinin mühərrikli təkərli oturacaqla təminatına başlanıb. Nazirlikdən hafta.az-a verilən məlumata görə, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində Vətən müharibəsində yaralanmış qazilərimiz - Abdulla Abdullayev, Camal Alxasov, Natiq Salahov, Vüqar İbrahimov və İntiqam Əkbərov mühərrikli təkərli oturacaqla təmin ediliblər.**

Tədbirdə Agentliyin sədri Cavid Əbdül-Qədirov Prezident İlham Əliyevin müharibə iştirakçılarına xüsusi qayğısının təzahürü olaraq, qazilərimizlə bağlı geniş miqyaslı dəstək tədbirlərinin həyata keçirildiyini vurğulayıb. O bildirib ki, dəstək tədbirləri sırasında müharibədə yaralanmış qazilərimizin reabilitasiya xidmətləri və reabilitasiya vasitələri ilə təminatı mühüm yer tutur. Son iki ildə 11 reabilitasiya və sosial xidmət müəssisəsi istifadəyə verilib. Qazilərimizə keyfiyyətli reabilitasiya xidmətləri göstərilməsi üçün müasir infrastruktur yaradılıb. Agentlik sədri qazilərin ötən ilin dekabr ayından yüksək texnologiyalı protezlərlə təminatına başlandığını, artıq 15 hərbçinin yüksək texnologiyalı protezlə təmin edildiyini, bu sahədə işlərin davam etdirildiyini qeyd edib. Əlavə olaraq postmüharibə dövründə 210 qaziyə də 1220 reabilitasiya vasitəsi verildiyini diqqətə çatdırıb. C.Əbdül-Qədirov bildirib ki, eyni zamanda, müharibədə yaralanmış qazilərimizin də mühərrikli təkərli oturacaqlarla təminatına başlanır. İlk mərhələdə ölkəmizin ərazi bütövlüyü ilə əlaqədar əlilliyi olan şəxslərə, sonrakı mərhələdə digər əlilliyi olan şəxslərə mühərrikli təkərli oturacaqlar təqdim olunacaq.

Bütün bunlar ölkəmizdə əlilliyi olan şəxslərlə bağlı həm reabilitasiya infrastrukturunun, həm də reabilitasiya texnologiyalarının müasirləşdirildiyini göstərir. Yeni təkərli oturacaqlar Türkiyənin Wollex şirkəti tərəfindən istehsal olunub. Yük götürmə qabiliyyəti 120 kq olan bu oturacaqlar mühərrik əsasında işləyir və standartlar daxilində 12 dərəcəli enişdə hərəkət edə bilir. Enerji ilə tam təmin olunduğu halda 20 km məsafə qət edir. Bu oturacaq qapalı və açıq məkanlarda istifadə oluna bilər. Ön təkərləri öz ətrafları boyu tam dönmə qabiliyyətinə malikdir. Jostiklə idarə olunur və jostik üzərində pasiyentin rahatlığı üçün sükan qolu, səsli xəbərdarlıq düyməsi, 5 pilləli sürət səviyyəsini tənzimləmə düyməsi yerləşir. Yeni təkərli oturacaqlar əlilliyi olan şəxslərə kənar şəxsin köməyi olmadan sərbəst hərəkət etmək imkanı yaradır.



**■ Dövlət əmlakının özəlləşdirilməsi və istifadəyə verilməsi sahəsində yeni qanun layihəsi hazırlanır. Bu, Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatda əksini tapıb.**

Sənəddə qeyd edilib ki, qeyri-neft sektorunun inkişaf etdirilməsi və dövlət qurumlarında tənzimləyici və kommersiya funksiyalarının ayrılaraq özəl sektora keçməsi istiqamətində tədbirlər hazırlanır. Dövlət-özəl tərəfdaşlığı haqqında qanun layihəsinin qəbulu və Dövlət İnvestisiya Holdinqinin yaradılması da bu işlərə öz töhfəsini verəcək. Hesabatda nəzərə çatdırılır ki, eyni zamanda iri şirkətlər və səhmdar cəmiyyətlərinin özəlləşdirilməsi və ya onların fəaliyyətində səmərəliliyin özəl-dövlət tərəfdaşlığı mexanizmləri əsasında aparılması məqsədilə hazırda dövlət əmlakının özəlləşdirilməsi və idarəetməyə verilməsi sahəsində yeni qanun layihəsi hazırlanmaqdadır.



**■ Ermənistan hərbi birləşmələrinin törətdikləri cinayətlərə dair məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün Ermənistan silahlı qüvvələrinin ərazilərimizi minalaması səbəbindən 10 noyabr 2020-ci il tarixdən hazırkı vaxtadək işğaldan azad edilmiş ərazilərdə minaya düşmələri nəticəsində həlak olmuş və yaralanmış mülki şəxslər barədə Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən Azərbaycan, rus və ingilis dillərində infoqrafika hazırlanıb.**

Ermənistan silahlı qüvvələrinin ərazilərimizi minalaması səbəbindən 10 noyabr 2020-ci il tarixdən hazırkı vaxtadək işğaldan azad edilmiş ərazilərdə 21 mülki şəxs minaya düşüb. Onlardan 10 nəfər həlak olub, 11 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.



**■ İşğaldan azad olunmuş Zəngilan rayonu ərazisində Ekologiya və Təbii Sərvətlər, Daxili İşlər, Fövqəladə Hallar Nazirlikləri, Dövlət Sərhəd Xidməti və ANAMA-nın əməkdaşlarının iştirakı ilə 1000-dən çox ağac əkilib.**

Bunu Meşələrin İnkişafı Xidmətinin rəisi Namik Xıdırov bildirib. O qeyd edib ki, yel çərşənbəsi günündə Zəngilan rayonunun meşə fondu torpaqlarının açıq və seyrək ərazilərində karantin qaydalarına əməl olunmaqla yerli şəraitə uyğun ağaclar əkilib. Xidmət rəsmisinin sözlərinə görə, yaz əkin planına uyğun olaraq ölkə üzrə 200 hektar meşə fondu torpağında meşəbərpa işləri aparılacaq, hər bölgənin iqlim şəraitinə uyğun meşəcinsli ağaclar əkiləcək, toxumlar səpiləcək.



**■ Türkiyənin Mersin vilayətində “Akkuyu” Atom Elektrik Stansiyasının (AES) 3-cü blokunun təməlqoyma mərasimi keçirilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putin videokonfrans vasitəsilə mərasimə qatılıblar.**

Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz bildirib ki, “Akkuyu” AES-in 4-cü və son blokunun təməli gələn il qoyulacaq: ““Akkuyu” 2023-cü ildə, yəni cümhuriyyətimizin 100-cü ilində enerji istehsal edəcək”. Onun sözlərinə görə, “Akkuyu” AES Türkiyənin elektrik enerjisinə olan tələbatının 10 faizini qarşılayacaq: ““Akkuyu” AES tam fəaliyyətə başlayanda il ərzində 35 milyard kilovat/saat enerji ilə Türkiyənin elektrik enerjisinə olan tələbatının 10 faizini qarşılayacaq.



**■ Hər zaman olduğu kimi, işğaldan azad edilmiş torpaqların bərpasında da Azərbaycanın yanında olacağıq. Bunu Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıç keçirdiyi mətbuat konfransında deyib.**

O qeyd edib ki, onlar Azərbaycana dəstək vermək üçün gəliblər: “İşğaldan azad edilmiş bölgələrin bərpası, oradan olan insanların köçürülməsi üçün hər cür dəstəyi verəcəyik”. Komissiya sədri qeyd edib ki, 44 günlük müharibədən sonra Azərbaycan ərazi bütövlüyünü bərpa edib: “Biz Azərbaycana dəstək olmaq üçün bura gəlmişik. Azərbaycanda Türkiyəyə və Türkiyədən gələn hər kəsə qarşı çox böyük sevgi var.



**■ Elektrik mühərrikli avtomobillərin idxalının bütün gömrük rüsumlarından və vergilərdən azad olunması istiqamətində iş aparılır. Bu, Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatda əksini tapıb.**

Sənədə qeyd edilib ki, ekoloji və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə elektrik mühərrikli nəqliyyat vasitələrinin idxalı, dövlət qeydiyyatı və istismarının bütün gömrük rüsumlarından və vergilərdən azad olunması, habelə hibrid avtomobillərin idxalı zamanı əlavə dəyər vergisindən, istehsal tarixinə görə yeni nəqliyyat vasitələrinin idxalı zamanı tətbiq edilən vergi və gömrük rüsumlarına yenidən baxılması, elektrik mühərrikli və istehsal tarixinə görə yeni nəqliyyat vasitələrinin dövriyyəsi ilə bağlı alıcılar üçün güzəştli kredit şərtlərinin tətbiqi ilə əlaqədar stimullaşdırıcı tədbirlərin görülməsi istiqamətində müvafiq işlər aparılır.

## Araşdırma

# Soyan və qazandıran koronavirus aşıları

***Ortalama 1 ildir ki, koronavirus pandemiyası dünyanı öz əsirinə çevirib. 118 milyondan çox adam virusa yoluxub ki, onlardan 2,6 milyon nəfərdən çoxu dnyasını dəyişib. Əlbəttə, müsbət xəbərimiz də var - 94 milyon insan yoluxduğu bu xəstəlikdən sağalaraq normal həyata qayıdıb. İndi bir maraqlı məqam var: dünyanın bir neçə biotexnologiya şirkəti koronavirus əleyhinə aşı hazırlayaraq, bazara çıxarıb. Hər şirkətin aşısı digərindən həm tərkibinə, həm qiymətinə, həm də adicə saxlanma tələblərinə görə fərqlənir. Məsələn, "Pfizer" aşısı mənfi 70 dərəcə temperaturda saxlanılmalıdır ki, tərkibi pozulmasın. İndi baxaq görək, hətta ala bildiyi təqdirdə dünyanın çox ölkəsi bu aşını harada saxlayacaq, necə mühafizə edəcək ki, keyfiyyətini itirməsin.***



Axı istənilən ölkənin bu aşını tətbiq etmək üçün gərək bütün şəhərlərdə mənfi 70 dərəcə temperatur şəraiti olan soyuducu sistemləri olsun. Afrikanın və ya Asiyanın zəif inkişaf etmiş, yoxsul ölkələrində isə ya bu şərait yoxdur, ya da onu yaratmaq üçün əlavə vəsait və texniki imkanlar tapmalıdır. Hansı ki, belə dövlətlərin heç aşı almağa pulları yoxdur. Rusiyanın "Sputnik V" və ya Çinin "SinoVac" aşıları isə əksinə, həm qiymətdə ucuzdur, həm də saxlanılması üçün elə bir çətin şərait tələb eləmir. Burada başqa bir problem yaranır - siyasi təzyiqlər. ABŞ və Avropanın inkişaf etmiş dövlətləri inkişaf etməkdə olan ölkələri hər cür vasitələrlə məcbur edirlər ki, rus və Çin aşılarını deyil, onların məhsullarını alsınlar. Təzyiqlər fayda verməyəndə, Qərb informasiya kanalları rəqib aşıları keyfiyyətsiz olmaqda, guya virus təhlükəsini aradan qaldırmamaqda ittiham edərək, başqa ölkələrin cəmiyyətlərində şübhə yaradırlar.

Yeri gəlmişkən, Qərb qütbünün Rusiya və Çin aşılarını gözdən salmaq üçün yürütdüyü siyasəti artıq neçə aydır açıq hiss edirik. Nəticə bu cürdür: birillik pandemiya dövründə aşı şirkətləri milyardlarla dollar sərvətə sahib olublar. Yəni pandemiya dövründə itirdikləri vəsaitin bir hissəsini məhz aşı satışı yolu ilə geri qaytarmağa başlayıblar. İndi də gəlin haqqında söz açdığımız şirkətlərin timsalında müəyyən qism dövlətlərin qazanclarını ayrı-ayrılıqda nəzərdən keçirək.



### "Pfizer"

**ABŞ-ın dərman şirkəti "Pfizer"lə Almaniya firması "BioNTech"in ortaq ürətdiyi, rəsmi adı "Comirnaty" olan aşı "mRNA" texnologiyası əsasında hazırlanılb. Saxlanılma tələblərinə görə aşılar arasında ən çətin və maliyyətlisidir. Bu aşı mənfi 70 dərəcədə saxlanılıb mühafizə olunmalıdır.**

Dünyada ilk təsdiqini almış bu aşıdan ümumilikdə 780 milyon doza sifariş verilib. ABŞ 3,9 milyard dollar vəsait ödəməklə 200 milyon, Avropa İttifaqı isə 300 milyon doza alıb. Bu aşının iki dozası ABŞ-a 39 dollar, Avropa İttifaqına isə 30 dollara satılıb. Pfizer/BioNTech aşısından 40 milyon dozanın da COVAX vasitəsilə yoxsul ölkələrə göndəriləcək. "The Guardian"ın yazdığına əsasən, bu çərçivədə "Pfizer/BioNTech"in ötənilki müqavilələrdən ortalama 10 - 25 milyard dollar qazandığı düşünülür. Təxminlərə görə, firma ötən il 2 milyard dozadan çox aşı istehsal edə bilib. "The Guardian"a görə, "Pfizer"in hissələri son 12 ayda 1,8, "BioNTech"inki isə 1,6 dəfə bahalaşıb. Gəlirlərin iki firma arasında bərabər bölünəcəyi qeyd edilir. "BioNTech"in qurucuları olan Uğur Şahin və Özləm Türecinin isə ötən il milyarderlər siyahısına girdikləri bildirilir.

### "Moderna"

**ABŞ-da fəaliyyət göstərən biotexnologiya şirkəti "Moderna"nın hazırladığı, "mRNA" seriyasından və mənfi 20 dərəcədə saxlanması lazım olan ikidozalıq aşı da bazarda özünə möhkəm yer edib.** İngiltərə 17 milyon doza alıb aparıb. Avropa İttifaqı isə 310 milyon doza almaqla yanaşı, daha 150 milyon dozanı 2022-ci ildə alacağına dair şirkətlə niyyət protokolu imzalayıb. ABŞ-ın özü bu aşıdan 300 milyon, Yaponiya 50 milyon doza sifariş edib. Maraqlıdır ki, "Moderna" iki doza aşını ABŞ-a 30 dollara, Avropa İttifaqına isə 36 dollara satıb. Məlumata əsasən, "Moderna"nın 2021-ci ildə aşı satışından 20 milyard dollar qazandığı təxmin edilir. Şirkətin səhmlərinin pandemiya dövründə 4 dəfə bahalaşdığı bildirilir. Xüsusilə də, şirkəti yaradıldığı vaxt dəstəkləyənlərin çox böyük gəlir götürdükləri bildirilir. Yalnız şirkətin səhmlərinin 9 faizinə sahib olan 48 yaşlı fransalı CEO Stefano Bancelin varidatı 5 milyard dollar yüksəlib.

### "Johnson & Johnson"

**Amerika firması olan "Johnson & Johnson"un adenovirus texnologiyasına əsaslanan aşısı, şirkətin Belçikadakı alt qurumu olan "Janssen" tərəfindən istehsal edilib. Bu, günümüzədək iki yerinə bir doza vurulan yeganə aşıdır.** Üç ay ərzində standart soyuducuda saxlana bilir. İndiyədək ABŞ-la yanaşı Avropa İttifaqı və İngiltərə böyük həcmdə sifarişlər veriblər.

Məlumata əsasən, ABŞ hər dozasına 10 dollar olmaqla - 1 milyard dollar ödəməklə 100 milyon doza sifariş edib. Üstəlik, daha 200 milyon aşı üçün də öhdəliyə dair müqavilə bağlayıb. İngiltərə isə ilk etapda 30 milyon doza sifariş edib, 22 milyon aşı üçün isə öhdəlik sazişi bağlayıb. Avropa İttifaqı isə daha çox - 400 milyon aşı sifariş edib, əlavə olaraq da COVAX vasitəsilə daha 500 milyon doza aşı alaraq yoxsul ölkələrə paylayacaq. "Johnson & Johnson"un 2021-ci ildə ümumilikdə 10 milyard dollarlıq məhsul satması planlaşdırılıb. Firmanın hissələri pandemiya dövründə 7,7 faiz bahalaşıb.

### "AstraZeneca"

**"Adenovirus vector" texnologiyasına əsaslanan "AstraZeneca" aşısı, İngiltərənin Oksford Universiteti tərəfindən istehsal edilib. Soyuducuda aşağı temperaturda saxlanılan bu aşının ən böyük alıcıları İngiltərə, Avropa İttifaqı və ABŞ-dır.**

Firmanın 2021-ci ildə 3 milyard dollarlıq aşı satması planlaşdırılıb. Qeyd edilir ki, əgər şirkət illik 3 milyard doza vaksin istehsal etmə gücünü aşarsa, parallel olaraq satışda artım olacaq. Firmanın fərqli ölkələrlə bağladığı müqaviləyə əsasən, iki doza aşının qiyməti 4,30 dollarla 10 dollar arasında dəyişir. "AstraZeneca" pandemiya dövründə gəlir götürmək məqsədilə hər hansı bahalaşmaya getməyəcəyini açıqlasa da, firmanın səhmləri sürətlə bahalaşmaqdadır. Son məlumata görə, indiyədək səhmlər 8,6 faiz dəyər qazanıb.

### "SinoVac"

**Dünya aşı bazarında özünəməxsus yeri olan vasitələrdən biri də Çində istehsal edilən "SinoVac"dır. Bu aşı artıq yarım ildən çoxdur ki, Çində əhaliyə tətbiqlənməkdədir.**

O cümlədən, Azərbaycanda və qardaş Türkiyədə də əsasən bu vaksindən istifadə olunmaqdadır. Azərbaycan və Türkiyə ilə yanaşı, Braziliya, İndoneziya, Çili, Sinqapur, Malayziya, Filippin və sair kimi onlarla ölkə "SinoVac" aşısı üçün artıq böyük həcmdə sifariş verib. Eyni zamanda, adıçəkilən şirkət COVAX vasitəsilə də 10 milyon doza aşı satmağı planlaşdırır. "The Guardian"a görə, "SinoVac"ın 2021-ci ildə bir neçə milyard doza aşı satması gözlənilir. Aşının iki dozası Çinin bəzi şəhərlərində 60 dollara satılsa da, firmanın İndoneziyadakı ortağı "Bio Farma" eyni aşının iki dozasını 27,20 dollardan - 40 milyon doza aldığını bildirib. Pandemiya dövründə "SinoVac"ın hissələri də 21,6 faiz dəyər qazanıb.

### "Sputnik V"

**Rusiyada bazara çıxarılmış "Sputnik V" aşısı günümüzdə Rusiya ilə yanaşı, Macarıstan və Slovakiyada da kütləvi şəkildə insanlara tətbiq edilir.**

Avropa İttifaq Komissiyasının martın 4-də verdiyi qərara əsasən bütün üzv ölkələrə Rusiya (eyni zamanda Çin) aşısı almaq səlahiyyəti verilib. Bundan başqa, İran, Əlcəzair, Belarus, Serbiya, Argentina, Boliviya, Fələstin, Venesuela, Paraqvay, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri, Meksika - 50-dən artıq ölkə "Sputnik V" aşısı sifariş verib. "The Guardian"a görə, 2021-ci ildə "Sputnik V" bazarında milyardlarla dollarlıq satışın olacağı gözlənilir. Rusiya hökumətindən verilən məlumata görə, "Sputnik V" ölkə daxilində havayı, xarici bazarda isə iki dozasının ümumi qiyməti 20 dollardır. İndiyədək xarici ölkələrdən təxminən 1,2 milyard dollarlıq aşı sifarişi alan Rusiya yaxşı qazanc da əldə edib. Rusiyanın rəsmi şəxslərinin dediklərinə görə, Moskva bir il ərzində aşı satışına dair müqavilələrlə 24 milyard dollar gəlir götürüb ki, bu da ölkənin bir ildə silah satışından qazandığı vəsaitin iki qatı deməkdir. Belə ki, Rusiya 2020-ci ildə silah satışından 10-13 milyard dollar qazanıb.

### "Novavax"

**Amerika firması "Novavax"ın hazırladığı aşı rekombinant protein texnologiyasına əsaslanır. Firma var qüvvəsini bu ilin ilk yarısında İngiltərə və ABŞ-dan icazə almağa yönəldib.**

Hardasa 30 ildir fərqli aşı araşdırmaları aparan və indiyədək təsdiqlənmiş aşısı olmayan "Novavax"la, Avropa İttifaqı, Kanada, İngiltərə və Avstraliya artıq müqavilə bağlayıb. Məlumata görə, Novax, aşısı təsdiqini aldığı təqdirdə 300 milyon doza tədarük edəcək. "Financial Times" yazır ki, aşının Afrikada hər dozasının 3 dollara satılması da qəbul edilib. Bu aşının da zəif tərəfi odur ki, ancaq aşağı mənfi tempraturda saxlanılmalıdır. "Novavax"dan bəyan ediblər ki, təsdiqləndiyi halda bu ilin sonunadək ümumilikdə bir neçə milyard doza aşı satmağı hədəfləyiblər. Əslində şirkətin bazar sarıdan problem yoxdur. Çünki Hindistanın serium şirkəti ilə ortaqlığa sahibdir. Bu səbəbdən də Hindistan əsas bazardır. Pandemiya dövründə şirkətin səhmləri 12 dəfəyədək bahalaşıb. "Novavax"ın ən böyük sərmayədarı və aşı məqsədilə qurulmuş fondun rəhbərləri isə Vanguard və BlackRockdur.

### "CureVac"

**Almaniya biotexnologiya şirkəti "CureVac" da hazırladığı aşı ilə məşhurlaşmaqdadır. Maraqlıdır ki, şirkət hələ son sınaqları keçirir, məhsulu ən tezi apreldə bazara çıxarmağı planlayıb.** Amma indidən sifarişçiləri kifayət qədərdir. Hansı ki, hələlik ərazisində yerləşdiyi Avropa İttifaqı bu aşının etibarlığını təsdiq etməyib, yəni onun bazara çıxmasına icazə verməyib. Amma əvvəlcədən sifariş qəbul etmək göstərir ki, şirkət ilk başdan Avropa dünyasının xeyir-duasını alıb. Bu arada, Avropa İttifaqı artıq adı olan, özü isə hələ ortalıqda görünməyən "mRNA" qrupundan olan bu vaksindən 225 milyon doza sifariş edib. Yalnız bununla kifayətlənməyib, 180 milyon doza üçün də danışıqlar gedir. "CureVac"ın aşısı digər "mRNA" aşılarından fərqli olaraq soyuducuda təyin olunacaq soyuqda saxlanmalıdır. "CureVac" bəyan edir ki, onun istehsal edəcəyi aşı əvvəlkilərdən fərqli olaraq daha güclü tərkibə malik olacaq. Yəni bu aşını tətbiq edəcək insan koronavirusun yeni formaları qarşısında da dözüm göstərəcək. Şirkətin aşını neçəyə satacağı bəlli olmasa da, ancaq "CureVac", sərmayədarlarının yaxşı gəlir götürmək istədiklərini bildirib. Yəni heç də maya dəyərinə satmayacaqlarını vurğulayıb. Qısası, aşısı ortada olmayan şirkətin səhmləri son bir ildə artıq 45,5 faiz dəyər qazanıb. CureVac-ın ən böyük hissədarı (80 faiz) yazılım firması SAP-dır. Bu firmanın sahibi olan alman milyarder Dyetmar Hoppun şəxsi varidatının məhz aşı söhbəti çıxandan sonar artaraq 12 milyard dolları keçib.

***Vüsal Tağıbəyli***

# Yoluxma dinamikası düşərsə, teatrlar açıla bilər

***Yoluxma dinamikası düşərsə, teatrlar açıla bilər. Bunu Mədəniyyət naziri Anar Kərimov deyib. Onun sözlərinə görə, teatrların fəaliyyəti ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahla müzakirələr aparılır:***



**Anar Kərimov,**
Mədəniyyət naziri

"Pandemiya ilə bağlı dinamika hər zaman nəzərdən keçirilir və təbii ki, Mədəniyyət Nazirliyi də bununla bağlı sorğular ünvanlayır və hələlik müzakirələr davam edir. Dinamika, əlbəttə ki, aşağı düşdüyü halda, teatrlar açılacaq.

Ümid edirik ki, mövsümün sonuna kimi bu baş verəcək. Əlbəttə, teatrlar açılsa, orada müəyyən məhdudiyyətlər tətbiq olunacaq. Əsasən də sosial məsafənin qorunması...".

Ermənistan Azərbaycan torpaqlarını işğal etdikdən sonra, ölkənin aparıcı teatrları - İrəvan Dövlət Dram Teatrı, Şuşa Dövlət Dram Teatrı və digər teatrlar öz dogma öz doğma yerlərindən didərgin düşərək Bakıda fəaliyyətlərini davam etdiriblər - Anar Kərimov deyib. Onun sözlərinə görə, bu qədər haqsızlıqlara baxmayaraq, bu teatrlar fəaliyyətlərini davam etdirib, Azərbaycan tamaşaçılarını sevindiriblər: "1980-ci illərin sonlarında başlayan azadlıq hərəkatı, 1990-cı illərin əvvəlində baş verən 20 Yanvar faciəsi, bundan sonra Ermənistanın Azərbaycana təcavüzi, işğalçılıq siyasəti, Xocalı soyqırımı və torpaqlarımızın 20 faizinin erməni işğalçıları tərəfindən zəbt edilməsi teatr prosesinə təsirsiz ötüşmədi.

> *"Hazırkı məqsədlərimizdən biri də odur ki, həmin o məkanlardan didərgin düşmüş teatrlarımızı öz dogma yurdlarına qaytaraq*

Ötən il Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandanın siyasi iradəsi və qətiyyətli mövqeyi ilə şanlı Ordumuz 44 günlük Vətən müharibəsindən sonra torpaqlarımızı işğaldan azad etdi. Bizim hazırkı məqsədlərimizdən biri də odur ki, həmin o məkanlardan didərgin düşmüş teatrlarımızı öz dogma yurdlarına qaytaraq. Azərbaycan dövləti bunun üzərində işlər aparır və bu teatrlar öz dogma torpaqlarında fəaliyyətlərini bərpa edəcəklər".

# "Azəriqaz" abonentlərə borcla bağlı SMS bildiriş göndərib




**"Azəriqaz" İstehsalat Birliyi abonentlərə təbii qazdan istifadəyə görə SMS bildirişlərin göndərilməsinə başlayıb. Qurumdan hafta.az-a verilən məlumata görə, təxminən bir ay əvvəl start verilən yeni proqramlaşdırma işləri müvəffəqiyyətlə tamamlanıb.**

Mart ayının 9-dan etibarən bir gün ərzində Bakı şəhəri və Abşeron yarımadasını əhatə etməklə 12 inzibati rayon üzrə SMS bildirişlər Birliyin abonent bazasında mövcud olan mobil telefon nömrələrinə göndərilib. Ümumilikdə 61 mindən çox abonenti əhatə edən SMS bildirişlər 5 milyon manata yaxın debitor borcun yığımını əhatə edir. Ən çox SMS bildirişi Abşeron rayonu üzrə 10 970 abonent alıb. SMS bildirişlərin göndərilməsi "Azəriqaz" İstehsalat Birliyi üçün də yeni bir təşəbbüs olduğundan bəzi xırda çatışmazlıqlar ortalığa çıxa bilər. Bir sutka ərzində 10-a yaxın belə müraciət daxil olub. Əsasən bu müraciətlər bəzi abonentlərin bazadakı mövcud mobil nömrələrinin daha sonra digər şəxslərə satılması və ya bağışlanmasından irəli gələn məsələləri əhatə edir. Bu halda da çətinliklər tez bir zamanda araşdırılaraq aradan qaldırılır.

Qeyd edək ki, bundansonrakı mərhələdə proqram təminatı təkmilləşdirilməklə, SMS bildirişlərin göndərilməsinin ölkənin digər bölgələrində də tətbiqi nəzərdə tutulur.

## GÜNÜN FOTOSU



Myanmarda hərbi çevrilişə etiraz edənlər...

# Binaların zəlzələyə davamlılığına FHN nəzarət edir

**Qurban Yetirmişli,**
Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru

Seysmoloji tədqiqatların nəticələrinin bina və qurğuların inşası və digər zəruri sahələrdə nəzərə alınması vacibdir.

Səh. 6

## STATİSTİKA



■ Atların orta ömür statistikası 25-30 il təşkil edir.

■ 20-dən artıq xalq üçün atlar müqəddəs heyvan sayılır.

■ Üstündə minici olduğu halda atların hündür maneədən tullanma üzrə dünya rekordu 1949-cu ildə qeydə alınıb - 2,47 metr.

■ Atlarda insanlardan 18 ədəd çox sümük var.




Səh. 7

# Başörtüyü ilə bağlı "Pasportlar haqqında" qanuna dəyişiklik təklifi